№ 07 (1002) 15-21 fevral 2018-ci il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# «Vergilər. Şəffaflıq. İnkişaf» mövzusu diqqət mərkəzində

*Konfrans vergi orqanları ilə vətəndaş cəmiyyəti və işgüzar dairələr arasında açıq dialoqun qurulması istiqamətində mühüm addım kimi dəyərləndirilib*

Azərbaycanın vergi sistemində şəffaflığın təmin edilməsi, vergiödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın yüksəldilməsi, dinamik və müasir idarəetmə prinsiplərinə söykənən vergi administrasiyasının formalaşdırılması istiqamətində ardıcıl addımlar atılır. Risklərin artdığı müasir dövrdə sabit maliyyə resurslarının təmin edilməsində vergi sistemi mühüm rol oynayır.

Bu fikirlər fevralın 13-də Vergilər Nazirliyinin "Vergilər. Şəffaflıq. İnkişaf" mövzusunda keçirdiyi konfransda səsləndirilib.

Konfransda çıxış edən Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, **akademik Ziyad Səmədzadə** son dövrlər vergi sahəsində həyata keçirilən tədbirlərdən danışıb. Qeyd edib ki, son 15 ildə büdcə proqnozlarının yerinə yetirilməsi ilə bağlı problem olmayıb.

Vergi sisteminin əhəmiyyətindən danışan komitə sədri deyib: "Azərbaycanın son 15 ildə əldə etdiyi uğurların başlıca amillərindən biri ölkədə yeni iqtisadi sistemin qurulmasıdır. Ölkənin inkişafını təmin edən bu iqtisadi sistemin əsas istiqamətlərindən biri büdcə-vergi sistemidir. Vergi Məcəlləsinin qəbul edilməsi ölkənin iqtisadi həyatında mühüm hadisə olub. Risklərin artdığı şəraitdə sabit maliyyə resurslarının təmin edilməsində də vergi sisteminin böyük rolu var".

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) prezidenti Məmməd Musayev qeyd edib ki, təmsil etdiyi qurum Vergilər Nazirliyi ilə vergi siyasəti və vergi münasibətləri sahəsində sahibkarlığın inkişafına kömək göstərilməsinə xidmət edən məlumatların mübadiləsi və məsləhətləşmələr həyata keçirməsi barədə düşünür. Sahibkar-vergi münasibətlərində elə bir forma seçilməlidir ki, vergiödəyicisi vergi ödəməkdən məmnunluq duysun. ASK sahibkar-vergi münasibətlərinin daha da təkmilləşdirilməsi istiqamətində öz səylərini əsirgəməyəcək.



Milli Məclisin deputatı **Vahid Əhmədov**, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru **Ədalət Muradov**, "Deloitte" şirkətinin nümayəndəsi **Nuran Kərimov**, "BP-Azərbaycan"ın vitse-prezidenti Bəxtiyar Aslanbəyli ölkədə yaranmış yeni iqtisadi şəraitdə biznes mühitinin daha da yaxşılaşdırılması və vergi inzibatçılığının təkmilləşdirilməsi üçün vacib hesab etdikləri məsələlər barədə fikirlərini bölüşüb, dövlətimizin başçısı tərəfindən bu istiqamətdə həyata keçirilən tədbirləri dəstəklədiklərini bildiriblər.

Qeyd olunub ki, belə konfransların təşkili ölkəmizdə vergi sisteminin müasir vəziyyəti, qarşıda duran vəzifələr və inkişaf perspektivləri ilə bağlı vətəndaş cəmiyyəti və işgüzar dairələrlə açıq dialoqun qurulması istiqamətində mühüm addımdır.

Konfransda yekun nitqi ilə çıxış edən vergilər naziri **Mikayıl Cabbarov** deyib ki, bugünkü konfransın əsas məqsədi ölkəmizin vergi sistemindəki vəziyyət və onun perspektiv inkişaf istiqamətləri barədə işgüzar dairələrlə fikir mübadiləsi aparmaqdır. Nazir qeyd edib ki, ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi strategiyaya əsaslanan və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilən sosial-iqtisadi siyasət nəticəsində bu gün ölkədə rəqabətqabiliyyətli iqtisadi sistemin qurulması, davamlı inkişaf və iqtisadi dayanıqlılığın təmin olunması istiqamətində ciddi işlər həyata keçirilir.

Nazir vergi sistemində şəffaflığın təmin edilməsi, vergiödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın yüksəldilməsi, vergi orqanlarında idarəetmə prinsiplərinin yenidən təşkili, dinamik və müasir idarəetmə prinsiplərinə söykənən vergi administrasiyasının formalaşdırılması istiqamətində aparılan işlər barədə danışıb, nazirliyin qarşısında duran əsas hədəfləri açıqlayıb. Qeyd edilib ki, məqsəd sahibkarların vergi orqanları ilə canlı təmaslarını minimuma endirən keyfiyyətli və geniş elektron xidmətlər sistemi tətbiq etməkdir. Bundan başqa, Vergilər Nazirliyi vergi qanunvericiliyinin və vergi inzibatçılığının təkmilləşdirilməsi prosesində sahibkarların ictimai birlikləri, ekspert cəmiyyəti, ictimai təşkilatlarla sıx əməkdaşlıq etmək niyyətindədir.

Konfransda Prezident Administrasiyasının, Milli Məclisin, Nazirlər Kabinetinin, digər dövlət orqanlarının, beynəlxalq təşkilatların, yerli bankların, qeyri-hökumət təşkilatlarının, sahibkarların ictimai birliklərinin nümayəndələri və iş adamları iştirak ediblər.

# Növbəti 7 il ərzində Azərbaycanın inkişafına, tərəqqisinə, yüksəlişinə, sabitliyinə, əmin-amanlığına səs verək!

Fevralın 8-də Bakıda, Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının (YAP) VI qurultayı keçirilib.

YAP-ın 700 mindən çox üzvünü təmsil edən nümayəndələrin iştirak etdikləri qurultayda partiyanın sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev nitq söyləmişdir.

O, demişdir:

- Bu gün partiyamızın qurultayı keçirilir. Qurultay ölkəmizin ictimai-siyasi həyatında əlamətdar hadisədir. Çünki Yeni Azərbaycan Partiyası ölkəmizdə aparıcı siyasi qüvvədir. Partiyamızın ideyaları, siyasəti xalq tərəfindən dəstəklənir. Partiyamızın sıraları genişlənir, 700 mindən çox üzvümüz var və çox sevindirici hal ondan ibarətdir ki, gənclər partiyaya üz tuturlar. Gənclərin axını partiyamızın gələcək inkişafı üçün də əsas şərtlərdən biridir.

Keçən ilin noyabrında biz partiyamızın 25 illik yubileyini qeyd etmişik. Bu 25 il ərzində partiyamız uğurlu və şərəfli yol keçmişdir. Bütün iştirak etdiyi seçkilərdə Yeni Azərbaycan Partiyası qələbə qazanmışdır və bu 25 il qələbələr salnaməsidir. 1992-ci ildə ulu öndər Heydər Əliyevin sədrliyi ilə Naxçıvan şəhərində keçirilmiş partiyamızın təsis konfransı tarixi hadisə idi və 25 ildən sonra biz bunu əyani şəkildə ölkəmizdə mövcud olan vəziyyətdə, əldə etdiyimiz uğurlarda görürük. O vaxt partiyamızın yaradılması dönüş nöqtəsi idi. Əgər o vaxt bu partiyamız yaradılmasaydı, bilmək olmazdı ölkə hansı istiqamətdə inkişaf edəcəkdi. Bir sözlə, 1993-cü ildən başlayaraq Azərbaycan uğurlu inkişaf yolu ilə gedir və inkişaf üçün əsas şərt - sabitlik tam bərqərar olmuşdur.

Azərbaycana investisiyalar qoyulmağa və ölkəmiz sürətlə inkişaf etməyə başlamışdır. 2003-cü ildən sonra da Heydər Əliyev siyasəti Azərbaycanda davam etdirilir.

Bu gün mən gələcək planlar, gələcəklə bağlı fikirlər haqqında öz sözlərimi sizinlə və Azərbaycan ictimaiyyəti ilə bölüşmək istəyirəm ki, biz Azərbaycanı gələcəkdə daha da güclü dövlətə çevirmək üçün hansı işləri görməliyik.

Daxili siyasətlə bağlı. Bizim son illər apardığımız siyasət özünü tam doğrultdu, Azərbaycanda sabitlik mövcuddur. Qeyd etdiyim kimi, sabitlik hər bir inkişafın əsas şərtidir. Biz görürük ki, son 5-6 il ərzində dünyanın müxtəlif yerlərində, bizim regionumuzda çox ciddi, narahatedici proseslər gedir. Qanlı toqquşmalar, vətəndaş müharibələri, ölkələrin bir-birinin işinə kobudcasına qarışması, hərbi müdaxilələr - bütün bunlar bizim gözümüzün önündə baş verən məsələlərdir. Biz görürük ki, sabitlik pozulduqda heç bir inkişafdan söhbət gedə bilməz. Ona görə həyat və yaxın tarixin mənzərəsi göstərir ki, sabitlik əsas amildir və sabitlik necə təmin edilməlidir? Ancaq düzgün siyasətlə. O siyasət ki, onun mərkəzində xalq dayanır, ölkə vətəndaşı dayanır. Biz məhz bu siyasəti aparırıq.

Ölkəmizdə ictimai asayiş qorunur, kriminogen durum çox müsbətdir, Azərbaycan dünyanın ən təhlükəsiz ölkələrindən biridir.

Bizim xarici siyasətimizlə bağlı apardığımız xətt özünü tam doğrultdu. Azərbaycan bu gün beynəlxalq birlik tərəfindən çox böyük rəğbətə layiq olan ölkə kimi tanınır.

Müsəlman aləmində Azərbaycan çox böyük dəstəyə malik olan bir ölkədir. İslam Əməkdaşlıq Təşkilatı dəfələrlə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədaləti əks etdirən qətnamələr qəbul etmişdir. Bu gün hesab edirəm ki, müsəlman aləmində Azərbaycan müəyyən dərəcədə barışdırıcı, əlaqələndirici missiyanı uğurla icra edir. Eyni zamanda, Avropa ölkələri ilə bizim yaxın münasibətlərimiz var. Keçən il Avropa İttifaqı ilə yeni saziş üzərində danışıqlar başlamışdır. Avropa İttifaqına üzv ölkələr bizim əsas ticarət tərəfdaşlarımızdır, əsas inves-






torlardır. İndi hamı bilir ki, Azərbaycan prinsipial mövqedədir, müstəqil siyasət aparır. O siyasət ki, Azərbaycan xalqının maraqlarını təmin edir, o siyasət ki, bir çox tərəfdaşlar üçün də əlavə imkanlar yaradır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkəmizin ərazi bütövlüyü çərçivəsində BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. Biz heç vaxt imkan verə bilmərik ki, torpağımızda ikinci erməni dövləti yaradılsın.

Məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması və mənzillərlə, evlərlə təmin edilməsi istiqamətində bundan sonra da uğurlu siyasət aparılacaq. Bu günə qədər 270 minə yaxın köçkün evlərlə təmin edilib. Bu il 20 minə yaxın, bəlkə də bundan da çox köçkünü biz yeni evlərlə təmin edəcəyik. Bu siyasət davam etdiriləcək.

Bütün planlarımızı həyata keçirmək üçün iqtisadiyyatımızı gücləndirməliyik. Bu gün ölkə iqtisadiyyatı öz templərini artırır. Növbəti illərdə islahatlar mütləq davam etdiriləcəkdir. Keçən ilin iqtisadi göstəriciləri göstərdi və sübut etdi ki, biz düzgün yoldayıq. İqtisadiyyatın qeyri-neft sektoru 2,7 faiz, sənayedə qeyri-neft sektoru 3,7 faiz, kənd təsərrüfatı 4,1 faiz, valyuta ehtiyatlarımız 4,5 milyard dollar artmışdır. Beləliklə, yanvar ayında Azərbaycanda ümumi daxili məhsul 2 faiz, qeyri-neft iqtisadiyyatımız təxminən 4 faiz, sənaye istehsalı 1,5 faiz, qeyri-neft sektorunda sənaye istehsalı 8,7 faiz artıb. İnflyasiya birinci ayda 5,5 faizdir, əhalinin pul gəlirləri 11 faizdən çoxdur. Yəni, əhalinin gəlirləri inflyasiyanı iki dəfə üstələyir. Bu ilin yanvar ayında bizim valyuta ehtiyatlarımız 2 milyard dollar artıb və bu gün valyuta ehtiyatlarımız 44 milyard dollar səviyyəsindədir. Mən əminəm ki, 2018-ci il sürətli inkişaf ili olacaq və ondan sonrakı bütün illərə çox güclü təkan verəcək. Kənd təsərrüfatında, sənaye sahəsində indi həyata keçirilən layihələr tezliklə, bir-iki il ərzində öz bəhrəsini verəcəkdir.

Biz indi nəhəng enerji layihələrini icra edirik. Bu da qarşıda duran əsas vəzifələrdən biridir. Biz Cənub Qaz Dəhlizini vaxtında təhvil verməliyik, bunu edəcəyik. Bütün maliyyə resursları təmin edilib, həm Azərbaycan, həm beynəlxalq banklar tərəfindən. Müəyyən yubanmalar olmuşdur, onlar da aradan götürüldü. Çünki Cənub Qaz Dəhlizi həm bizim üçün, həm də Avropa üçün strateji əhəmiyyətə malik olan bir layihədir. Azərbaycan öz liderlik missiyasını uğurla icra edir. Biz bu tarixi layihəni - 7 ölkəni, qitələri birləşdirən, 3500 kilometr məsafəsi olan və dənizin altından, dağların başından keçən qaz kəmərini uğurla həyata keçiririk. "Şahdəniz-2" layihəsindən yaxın zamanlarda ilk qaz çıxarılacaq. Onu da deməliyəm ki, Cənub Qaz Dəhlizi, yəni, qaz kəməri artıq qazla təmin edilir. Bu, tarixi layihədir və ölkəmizin uğurlu, dayanıqlı inkişafı üçün əsas resurs bazasıdır.

Qeyd etdiyim kimi, "Azəri-Çıraq" yatağı ilə bağlı kontraktın uzadılması haqqında da tarixi qərar qəbul edilib. Ona görə bundan sonra da neft-qaz sektorunda Azərbaycan uğurla inkişaf edəcək.

Növbəti illərdə önəmli, tarixi nəqliyyat layihələrini yenə də icra etməklə Azərbaycan - açıq dənizlərə çıxışı olmayan bir ölkə Avrasiyada nəqliyyat mərkəzlərinin birinə çevriləcəkdir. Bizim əsas dəyərimiz, ən böyük nemətimiz müstəqilliyimizdir. Biz müstəqil ölkə kimi yaşayırıq. Müstəqilliyimizin də banisi ulu öndər Heydər Əliyevdir. Məhz onun hakimiyyətə gəlməsindən sonra Azərbaycan, sözün əsl mənasında, müstəqillik yoluna qədəm qoydu. Biz də bu müstəqil yol ilə gedirik və gedəcəyik.

* * * *

Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin 2018-ci il aprelin 11-də növbədənkənar prezident seçkilərində namizədliyinin irəli sürülməsi barədə Yeni Azərbaycan Partiyasının VI qurultayında qəbul edilmiş qərarla İlham Heydər oğlu Əliyev 2018-ci il aprel ayının 11-də keçiriləcək növbədənkənar prezident seçkilərində Azərbaycan Respublikasının prezidentliyinə namizəd irəli sürüldü.

"Azərbaycan Xalq Cümhuriyyəti İli"

*Bildiyimiz kimi, Prezident İlham Əliyev 2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi ilə bağlı Sərəncam imzalayıb. Dövlət başçısı 100 il əvvəl Azərbaycanda cümhuriyyətin qurulmasının tarixi əhəmiyyətini vurğulamışdır. 2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi ilə əlaqədar olaraq qəzetimizin bu sayından başlayaraq, Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyasından, həmçinin Azərbaycan alimlərinin apardığı tədqiqatlardan, nəşr edilmiş əsərlər və arxiv sənədlərindən istifadə edilərək, Xalq Cümhuriyyətinin tarixini, Azərbaycan iqtisadiyyatının 100 il ərzində keçdiyi yolu əks etdirən yazılar oxucuların nəzərinə çatdırılacaqdır.*

# Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisidir

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ (AXC), Azərbaycan Cümhuriyyəti, Azərbaycan Demokratik Respublikası - Birinci Dünya müharibəsinin (1914-18) gedişində və Rusiyada Romanovlar mütləqiyyətinin devrilməsi (1917, fevral) nəticəsində Şimali Azərbaycanda (Rusiya Azərbaycanında) yaranmış müstəqil dövlət (1918, 28 may - 1920, 28 aprel). Dünya tarixinin ən demokratik dövlət qurumlarından biri. Türk-müsəlman Şərqində ilk parlamentli respublika. Paytaxtı Bakı şəhəri idi. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində Cənubi Qafqazda azərbaycanlıların elliklə yaşadıqları ərazilər təqribən 150 min kv. km-ə bərabər idi. 1918-ci ildə Cənubi Qafqazda müstəqil dövlətlər meydana gəldikdə əzəli Azərbaycan torpaqlarının bir hissəsində Ermənistan Respublikası yaradıldı. AXC hökuməti, həmçinin Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri və keçmiş İrəvan xanlığının paytaxtı olan İrəvanı da ermənilərə güzəştə getməyə və onu yeni yaradılan Ermənistan Respublikasının "siyasi mərkəzi" kimi tanımağa məcbur oldu. Beləliklə, Cənubi Qafqaz respublikaları arasında sərhəd məsələləri qismən nizama salındıqdan sonra AXC Cənubi Qafqazdakı tarixi Azərbaycan torpaqlarının 113,9 min kv. km-ni əhatə edirdi. AXC-nin əhalisi 3,3 milyondan çox idi. AXC hüquqi, demokratik, dünyəvi dövlət idi. Dövlət hakimiyyəti üç qoldan ibarət idi: parlament, hökumət, məhkəmə hakimiyyəti. Dövlət parlamentin qəbul etdiyi qanun və qərarlar əsasında idarə olunurdu. Parlamentdə Azərbaycan ərazisində yaşayan bütün xalqlar, o cümlədən sayca çox az olduğuna görə parlament seçkilərində iştirak etmək hüququ olmayan xalqlar da öz deputatları ilə təmsil olunmuşdular (türk-müsəlman əhalisi - 80, ermənilər — 21; ruslar - 10, almanlar - 1, yəhudilər - 1, gürcülər - 1, polyaklar - 1, Bakı Həmkarlar İttifaqları - 3, Bakı Neft Sənayeçiləri İttifaqı - 2). İcra Hakimiyyəti hökumətə məxsus idi. Hökumət parlament qarşısında cavabdeh idi. AXC hökuməti 1918-ci il mayın 28-dən iyunun 16-dək Tiflisdə, iyunun 16-dan sentyabrın 17-dək Gəncədə, sentyabrın 17-dən 1920-ci il aprelin 28-dək Bakıda fəaliyyət göstərmişdir. Azərbaycan Xalq Cümhuriyyəti Paris sülh konfransı (1919-20) Ali Şurasının qərarına (1920, 11 yanvar) əsasən müstəqil dövlət kimi tanınmışdı. Dünyanın bir çox ölkələri ilə (Türkiyə, İran, Ukrayna, Böyük Britaniya, ABŞ, Fransa, İtaliya, Polşa, İsveç, Latviya, Litva, Estoniya, Finlandiya, Rumıniya, Almaniya, Gürcüstan, Ermənistan, Dağlılar Respublikası, Krım və b.) səfirlik və nümayəndəliklər səviyyəsində diplomatik münasibətlər yaratmış, ikitərəfli və çoxtərəfli müqavilələr, sazişlər bağlamışdı. AXC müstəqil məhkəmə sisteminin yaradılması sahəsində də mühüm tədbirlər həyata keçirmişdi. Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci il aprelin 27-də beynəlxalq hüquq normalarını kobudcasına pozan Sovet Rusiyasının hərbi müdaxiləsi nəticəsində süquta uğradı. Şimali Azərbaycan rus-bolşevik qoşunları tərəfindən işğal edildi və yenidən Rusiyaya ilhaq olundu. Sosializm sistemi və Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ) dağıldıqda Azərbaycan xalqı Şimali Azərbaycanda dövlət müstəqilliyini yenidən bərpa etdi (1991, 18 oktyabr).



# "Regionların inkişafında sahibkarlığın rolu" mövzusunda konfrans keçirildi

Fevralın 14-də Bakıda "Regionların inkişafında sahibkarlığın rolu" mövzusunda konfrans keçirilmişdir.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev çıxış etmiş, bildirmişdir ki, Azərbaycan sahibkarları prezident seçkilərində dövlətimizin başçısı İlham Əliyevin namizədliyini dəstəkləyəcəklər. Dövlətimizin başçısının siyasətinə həmişə sadiq olan və cəmiyyətin fəal hissəsini təşkil edən sahibkarlar inanırlar ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişafın Azərbaycan modeli yeni mərhələdə də keyfiyyətcə öz nailiyyətləri ilə davamlı inkişafın istinadına çevriləcək".




Konfransda Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri akademik Ziyad Səmədzadə, Auditorlar Palatasının sədri Vahid Novruzov və Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Mehbalıyev çıxış etmişlər.

Konfransın işi ilə bağlı geniş materialı qəzetimizin gələn sayında ətraflı oxuya bilərsiniz.

# Azərbaycanın enerjidən səmərəli istifadə ilə bağlı təcrübəsi yüksək qiymətləndirilib



Avronest PA-nın enerji komitəsinin iclasında Azərbaycanda enerjidən səmərəli istifadə, enerji effektivliyinin artırılması, alternativ enerji və səmt qazının havaya atılmasının azaldılması ilə bağlı həyata keçirdiyi islahatlar avropalı deputatların diqqət mərkəzində olub.

AZƏRTAC xəbər verir ki, komitənin iclasında Azərbaycan parlamentinin deputatı Muxtar Babayev "Avropa İttifaqı və Avropa Şərq Tərəfdaşlığı ölkələrində enerji səmərəliliyinin artırılması və enerjinin davamlılığı" mövzusunda məruzə ilə çıxış edib.

Məruzəçi Azərbaycanda enerji resurslarından, karbohidrogen ehtiyatlarından səmərəli istifadə ilə bağlı xüsusi dövlət proqramı hazırlandığını diqqətə çatdırıb.

Bildirib ki, Azərbaycan, eyni zamanda, səmt qazının havaya atılmasının azaldılması və alternativ enerji ilə bağlı xüsusi proqram hazırlayıb. Hazırda proqramın icrası və bu sahədə effektivliyin artırılması ilə bağlı mühüm işlər görülür.

Məruzə ətrafında çıxışlar zamanı avropalı deputatlar Azərbaycanın bu sahədəki fəaliyyətini yüksək qiymətləndiriblər. Ölkəmizin təcrübəsinin öyrənilməsinin vacibliyi vurğulanıb.

Muxtar Babayev bildirib ki, məruzə Avronest PA-nın iyun ayında keçiriləcək iclasında təsdiq olunacaq. Bundan sonra maraqlı tərəflər Azərbaycanın təcrübəsindən bəhrələnə biləcəklər.

# Ötən il xarici ticarət dövriyyəsi 24257,6 milyon dollar olub



2017-ci ilin yanvar-dekabr aylarında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 187 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirib, 116 ölkəyə məhsul ixrac olunub, 179 ölkədən idxal edilib.

Dövlət Statistika Komitəsindən bildiriblər ki, gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2017-ci ilin yanvar-dekabr aylarında xarici ticarət dövriyyəsi 24257,6 milyon ABŞ dolları, o cümlədən ixracın dəyəri 15475,6 milyon dollar, idxalın dəyəri 8782,0 milyon dollar təşkil edib, nəticədə 6693,6 milyon dollarlıq müsbət ticarət saldosu yaranıb. 2016-cı ilin yanvar-dekabr ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 12,3 faiz artıb, real ifadədə isə 10,7 faiz, o cümlədən ixrac 7,1 faiz, idxal 16,1 faiz azalıb.

Dövlət Gömrük Komitəsinin məlumatlarına əsasən, ixracın 31,9 faizini İtaliyaya, 2,4 faizini Fransaya göndərilmiş məhsulların dəyəri təşkil edib. Eyni zamanda, ölkəmizə idxal olunmuş məhsulların ümumi dəyərinin 17,7 faizi Rusiya, hər biri 1,8 faiz olmaqla Norveç və Fransa ilə aparılmış idxal əməliyyatlarının payına düşüb.

# “Əsas strateji məqsədimiz, hədəfimiz ölkəmizi daha da gücləndirməkdir...”




*Son 14 il ərzində Azərbaycan böyük və şərəfli yol keçmişdir. Bütün sahələrdə ölkəmiz böyük uğurlara imza atmışdır. Azərbaycanın beynəlxalq nüfuzu artdı. Ölkəmizdə aparılan siyasi-iqtisadi islahatlar dünya birliyi tərəfindən yüksək qiymətləndirilir. Bütün beynəlxalq mötəbər qurumların reytinqlərində Azərbaycan qabaqcıl yerlərdədir. Ölkəmizdə təhlükəsizlik təmin edilir, sabitlik təmin edilir. Sabitliyin mənbəyi isə Azərbaycan xalqının iradəsidir, xalq-iqtidar birliyidir. Sabitlik olmayan yerlərə investisiyalar qoyulmur, inkişaf olmur, vəziyyət mənfi istiqamətdə inkişaf edir. Bu, həqiqətdir və yaxın tarixin nəticələri, bölgəmizdə yaşanan böhranlı vəziyyət bunu təsdiqləyir. Mən dəfələrlə demişəm, bir də demək istəyirəm ki, siyasətimizin təməlində Azərbaycan vətəndaşının maraqları dayanır və eyni zamanda, bizim əsas strateji məqsədimiz, hədəfimiz ölkəmizi daha da gücləndirməkdir, Azərbaycan dövlətinin qüdrətini artırmaqdır, müstəqilliyimizi möhkəmləndirməkdir.*

*İlham Əliyev*

Yanvarın 29-da Heydər Əliyev Mərkəzində“AzərbaycanRespublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfrans keçirilib. Konfransda Prezident İlham Əliyev çıxış edərək, ölkənin yaxın, orta və uzaq perspektivdə strateji fəaliyyət proqramları barədə ətraflı məlumat vermiş, regionların son 14 ildə əldə etdiyi uğurlara toxunmuş və qarşıda duran vəzifələri təhlil etmişdir. Bununla əlaqədar olaraq yanvarın 30-da «Azərbaycan Televiziya və Radio Verilişləri» QSC (AzTV) Milli Məclisin komitə sədri, akademik Ziyad Səmədzadəni və iqtisadiyyat nazirinin müavini Sahib Məmmədovu “Günün nəbzi” verilişinə dəvət edərək, onlarla fikir mübadiləsi aparmışdır. Həmin müzakirəni oxucularımızın diqqətinə çatdırırıq.

**Aparıcı Rövşən Raqif oğlu:** - *Ziyad müəllim, biz cənab prezidentin çıxışından bir fraqmentə baxdıq. Dövlət başçısı regionların inkişafına toxundu, Azərbaycanın davamlı inkişafını şərtləndirən əsas amilləri qeyd etdi, xalq-iqtidar, xalq-dövlət, xalq-lider birliyi və davamlı sabitliyin qorunması istiqamətində atılan addımlar barədə danışdı. Biz də bu barədə fikir mübadiləsi aparacağıq, amma öncə istərdim ki, bir vətəndaş, akademik, elm adamı və iqtisadçı kimi dünənki konfransın əhəmiyyəti ilə bağlı sizin fikirlərinizi eşidək. Konfrans sizin üçün hansı mühüm məqamlarla xarakterizə oluna bilər?*

**Ziyad Səmədzadə:** Əvvəla, çox təşəkkür edirəm ki, belə bir mövzu ilə əlaqədar olaraq dəvət olunmuşuq.

Konfransa mənim tək qiymət verməyim çox çətindir, amma onu deyə bilərəm ki, bu konfransda cənab prezident tərəfindən qaldırılan məsələlər, hökumətə, hökumət strukturlarına, sahibkarlara, bütövlükdə, Azərbaycan xalqına edilən tövsiyələr tarixi, fundamental xarakter daşıyır.

Fikir verdinizmi, cənab prezident çıxışında dedi ki, iqtisadi inkişaf və həmrəylik - bu iki məfhum, bu iki ciddi proses arasında əlaqənin tapılması Azərbaycan xalqının ən böyük nailiyyətidir. Sabitliyimiz var, dünya miqyasında siyasi nüfuzumuz artıb, ölkədə həyata keçirilən bütün layihələr xalqın və dövlətin milli maraqları baxımından çox əhəmiyyətlidir. Dünənki konfransda cənab prezident çox geniş və lazımlı məsələlərə toxundu, onların hər biri Azərbaycan xalqının, Azərbaycan dövlətinin inkişafına, Azərbaycan xalqının yaşayışının daha da yaxşı olmasına, Azərbaycan dövlətinin iqtisadi qüdrətinin artmasına kömək edəcək. Çünki orada qaldırılan məsələlər - istər beynəlxalq aləmdə əldə etdiyi uğurlarsahəsində, istər ölkənin infrastruktur layihələri, həyata keçirilən iqtisadi islahatların nəticələri, istərsə də Azərbaycan xalqının güzəranı baxımından, demoqrafik inkişafla iqtisadi inkişaf arasında əlaqə, ölkənin idxal-ixrac proseslərinin təhlili və s. məsələlər çox zəngin, konkret materiallar əsasında təhlil olundu.

**Aparıcı:** *Faktiki olaraq bütün istiqamətlər üzrə ölkənin inkişaf strategiyası təhlil olundu.*

**Ziyad Səmədzadə:** Bəli. Bu materiallar, orada verilən tövsiyələr bütün hökumət strukturları üçün, sözün əsl mənasında, gələcək fəaliyyət proqramıdır. Hər bir struktur orada öz fəaliyyətinin hansı istiqamətlərdə inkişaf etdiyini gördü. Ona görə mən dünənki konfransla əlaqədar olaraq bəzi cəhətləri də qeyd edəcəyəm. Bütövlükdə, regional inkişaf nə deməkdir? Regional inkişaf dövlətin iqtisadi siyasətinin bir hissəsidir. Lakin onun fərqli cəhəti ondan ibarətdir ki, o, bütövlükdə ölkədə həyata keçirilən iqtisadi islahatların bütün istiqamətləri ilə əlaqədardır.

**Aparıcı:** *Ziyad müəllim, yəqin, razılaşarsınız ki, əslində ölkənin inkişaf göstəricisi məhz regionların inkişafı ilə müəyyən olunur.*

**Ziyad Səmədzadə:** Ölkələr var ki, əsas mərkəzi rayonunda ölkə potensialının 90-95 faizi cəmlənir, o ölkə heç vaxt xoşbəxt ola bilməz. Regionlar isə qalır bir kənarda. Cənab prezidentin 2004-cü ildən elan etdiyi regional inkişaf proqramlarında nəzərdə tutulan bütün fikirlər həyata keçirilir. Ona görə mən hesab edirəm ki, bu, tarixi bir konfrans oldu. On dörd il bundan qabaq deyilən fikirlər var idi, amma, eyni zamanda, dünənki konfransda bu on dörd ildə əldə edilən uğurlar, çox sanballı şəkildə ümumiləşdirildi və Azərbaycan xalqına çatdırıldı.

**Aparıcı:** *Mən cənab prezidentdən bir sitatı qeyd etmək istərdim. Sahib müəllim, dövlət başçısı bildirdi ki, mən 2003-cü ildə prezident seçkiləri ərəfəsində bəyan etmişdim ki, əgər Azərbaycan xalqı mənə etimad göstərərsə, ilk növbədə Azərbaycan regionlarının problemləri ilə məşğul olacağam və söz vermişdim ki, Azərbaycan regionlarında sosial-iqtisadi inkişaf sürətlə gedəcək. Son on dörd il ərzindəki reallıqlar bunu göstərir ki, verilən bütün vədlər artıqlaması ilə yerinə yetirildi. Bax, həmin reallıqlar konkret olaraq nədən ibarətdir və indiyə qədər, qeyd etdiyimiz kimi, regionların inkişafı ilə bağlı üç proqram həyata keçirilib, dördüncü proqram artıq başlamaq üzrədir. Bu proqramlar Azərbaycan regionlarının inkişafında nə kimi mühüm önəm kəsb etdi, Azərbaycan regionlarının inkişafına öz töhfələrini necə verdi? Bu sualların cavabını cənab prezident hər bir detalı ilə qeyd etdi və biz verilişimiz ərzində bu məqamlara toxunacağıq. Amma sizin də fikirlərinizi eşitmək istərdik. Buyurun.*

**Sahib Məmmədov:** Bəli, Rövşən müəllim, qeyd etmək istərdim ki, regionların inkişafı cənab prezidentin həyata keçirdiyi iqtisadi inkişaf strategiyasının əsas tərkib hissələrindən biridir. Regionların inkişafı sahəsində 2004-cü ildən etibarən görülən işlər, xüsusilə, cənab prezident tərəfindən qəbul edilmiş üç Dövlət Proqramı – 2004-2008, 2009-2013 və hal-hazırda icra prosesində olan 2014-2018-ci illəri əhatə edən dövlət proqramlarının icrası nəticəsində regionlarımız, sözün əsl mənasında, yeni bir inkişaf mərhələsinə qədəm qoymuşdur. Regional inkişaf sahəsində həyata keçirilən kompleks tədbirlər, xüsusilə regionların infrastrukturunun yenidən qurulması - burada həm fiziki, həm də sosial infrastrukturdan söhbət gedir - yol-nəqliyyat infrastrukturu, elektrik təchizatı, qaz təchizatı, su təchizatı, meliorasiya, sosial infrastruktur – təhsil, səhiyyə, mədəniyyət, idman sahələrində görülən işlər, xüsusilə sənayenin, kənd təsərrüfatının, turizmin inkişafı sahəsində, sahibkarlığın inkişafı ilə əlaqədar görülən işlər bu gün öz nəticəsini verməkdədir və bu görülən işlər statistik göstəricilərdə də öz əksini tapmışdır. Diqqət yetirsək, görərik ki, dünya iqtisadiyyatında çətin proseslərin baş verməsinə, iqtisadi şokların dünya ölkələrinin iqtisadiyyatına təsir etməsinə baxmayaraq, 2017-ci ildə görülmüş işlərin nəticəsi olaraq ümumi daxili məhsulda artım qeydə alındı. Təbii ki, Azərbaycan iqtisadiyyatı da dünya iqtisadiyyatının bir parçasıdır və bu şoklar Azərbaycan iqtisadiyyatından da yan keçməmişdir. Lakin cənab prezidentin həyata keçirdiyi bu məqsədyönlü iqtisadi siyasət, çevik iqtisadi mexanizmlərin tətbiqi ölkə iqtisadiyyatının bu şoklara dayanıqlıq göstərməsinə şərait yaratmışdır. Statistik göstəricilər müsbətdir, xüsusilə qeyri-neft sektorunun payı ümumi daxili məhsulda 2017-ci ildə 2,7 faiz, qeyri-neft sənayesi 3,7 faiz, qeyri-neft ixracı 24,4 faiz, kənd təsərrüfatı 4,2 faiz, əhalinin gəlirləri 8,3 faiz artmışdır. Valyuta ehtiyatlarımız da 42 milyard dollar təşkil edir. Bu günə qədər ölkə iqtisadiyyatına qoyulan investisiyalar 231 milyard dollar təşkil etmişdir, yəni bütün bu göstəricilər onu deməyə əsas verir ki, ölkədə həyata keçirilən iqtisadi siyasət geniş, dərin, elmi təhlilə söykənir və beynəlxalq təcrübədə tətbiq olunan, sınaqdan keçmiş mexanizmlər ölkəmizdə tətbiq olunur ki, bunun da nəticəsində ölkə iqtisadiyyatında artım müşahidə edilir. Onu da nəzərə almalıyıq ki, cənab prezidentin qeyd etdiyi kimi, 2017-ci il ölkə iqtisadiyyatında bir sabitləşmə dövrü oldu. 2018-ci ildən isə artıq iqtisadi inkişaf proqnozlaşdırılır və əlbəttə, görülən bütün işlər, yaradılmış fundament artıq bunu deməyə əsas verir ki, 2018-ci ildə iqtisadi inkişaf daha da sürətlə gedəcək və bunun üçün iqtisadiyyatın bütün sahələrində, xüsusilə regionların tarazlı və davamlı sosial-iqtisadi inkişafı sahəsində görülmüş işlər güclü zəmin yaradır.

Biz onu da qeyd etməliyik ki, bu üç proqramın icrası daim cənab prezidentin diqqət mərkəzində olmuşdur. Ənənəvi olaraq, hər il proqramın icrasının yekunlarına dair cənab prezidentin sədrliyi ilə konfranslar keçirilir və bu proqramların icrasına yerlərdə nəzarət olunur, daim cənab prezident mütəmadi olaraq regionlara səfər edir. 2017-ci ildə 30-dan artıq səfər etmişdir, 150-dək obyektlə tanış olmuşdur,74 əlavə sərəncam imzalamışdır ki, bununla da 368 milyon manat bu proqramların icrasına yönəldilmişdir. Bütövlükdə, 2017-ci ildə regionların inkişafına 4,5 milyard manat investisiya yönəldilmişdir. Əlbəttə, bu sərəncamlar, vəsaitin ayrılması proqramda nəzərdə tutulan tədbirlərin icrasının sürətləndirilməsinə töhfə vermişdir. Dövlət proqramlarının əsas prioritetlərindən biri də sahibkarlığın inkişafıdır. Məhz sahibkarlığın inkişafı ilə bağlı görülmüş işlər, xüsusən regionlarda sahibkarlar ordusunun genişləndirilməsi, özəl sektorun ümumi daxili məhsulda payının artması regionlarda iqtisadi aktivliyin artmasına gətirib çıxarır.




**Aparıcı:** *Sahib müəllim, faktiki olaraq bu konfransda cənab prezident sahibkarlara daha çox çağırışlar etdi, biz bu barədə fikir mübadiləsi aparacağıq. Dövlət başçısı Azərbaycanın daxili bazarında daha çox tələbat və boşluqlar olan sahələr barədə sahibkarlara ətraflı məlumat verdi. Dövlət başçısı hesabat xarakterli çıxışında xüsusi olaraq on dörd il ərzində qazanılan uğurlardan danışdı - ölkəmizdə 30 elektrik stansiyası tikilib, bu stansiyaların generasiya gücü 2500 meqavata bərabərdir. Qazlaşdırma 93 faizə çatıb, bütün şəhərlərimiz qazla yüz faiz təmin edilib, ölkə üzrə fasiləsiz içməli su ilə təminat 67 faizə çatıb, bu, Bakı şəhərində 81 faiz, bölgələrdə isə 43 faizdir. Dörd su anbarı tikilib, bu, Taxtakörpü, Şəmkirçay, Göytəpə və Tovuzçay su anbarlarıdır. 12 300 km yol çəkilib, 443 körpü tikilib, iqtisadiyyat 3,2 dəfə, qeyri-neft iqtisadiyyatımız 2,8 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, sənaye sahəsi 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə, qeyri-neft ixracımız 4,1 dəfə artıb, valyuta ehtiyatlarımız isə 23 dəfə artaraq 42 milyard dollara bərabər olub. Dövlət başçısı bir mühüm məqama da toxundu. Ziyad müəllim, istərdim həmin məqamla bağlı sizin fikirlərinizi eşidək. Cənab prezident bildirdi ki, adambaşına düşən valyuta ehtiyatlarının həcminə görə Azərbaycan lider ölkələrdəndir və bizim valyuta ehtiyatlarımız ölkəmizin ümumi daxili məhsuluna bərabərdir. Bunun nə demək olduğunu iqtisadçılar çox gözəl bilir. Məsələnin mahiyyətini istərdik sizdən eşidək.*

**Ziyad Səmədzadə:** Çox maraqlı məsələdir, çünki hər bir ölkənin qloballaşan dünyada normal fəaliyyəti üçün risklərdən qorunması lazımdır. Ölkənin qloballaşan və təlatümlü dünyada normal fəaliyyətini qorumaq üçün Azərbaycan dövləti düşünülmüş siyasət qəbul etdi. 1999-cu ildə **Heydər Əliyev bilirdi ki, neftin satışından Azərbaycan dövlətinə neft gəlirləri daxil olacaq.** Onlardan səmərəli istifadə etmək, onların şəffaflığını artırmaq üçün Dövlət Neft Fondu yaradıldı. Bu valyuta ehtiyatlarının əsas hissəsi Neft Fondunda cəmləşdirildi. Dünyada neftin qiymətinin təlatüm etməsinə, hətta iki dəfə aşağı düşməsinə baxmayaraq, Azərbaycanın düşünülmüş siyasəti, cənab prezidentin bu işi nəzarətə götürməsi imkan verdi ki, biz çətinliklərin artdığı bir şəraitdə valyuta ehtiyatlarımızı artırırıq. Azərbaycanın 2004-cü ildə 1,3 milyard valyuta ehtiyatı var idi. Azərbaycan “Əsrin müqaviləsi”-ni imzalayanda bizim heç valyuta ehtiyatımız yox idi və çoxları inanmırdılar ki, Azərbaycana bu qədər investisiya gələcək.

**Aparıcı:** *Hətta, Ziyad müəllim, deyirdilər ki, “holland sindromu” baş verəcək.*

**Ziyad Səmədzadə:** Bəli, hətta son vaxtlara qədər də bizə deyirdilər ki, “lənətlənən neft dolları” Azərbaycana gəldi, istifadə olunmadı və s. Dünən cənab prezidentin o konfransda gətirdiyi statistik rəqəmlər Azərbaycanda aparılan iqtisadi inkişaf strategiyasının çox böyük nəticələrini göstərdi. Bu gün bizim valyuta ehtiyatlarımız 42 milyardı ötür və belə gedərsə, ilin axırında bu rəqəm daha da çox olacaq. Bu artım bizim xarici borcdan 6 dəfə çoxdur, kifayət qədər böyük rəqəmdir. Əlbəttə, onun səmərəli istifadə olunması dövlət başçısı tərəfindən düzgün qiymətləndirilir və deyilir ki, biz xaricdən borc almalıyıq, xarici kreditlərdən istifadə etməliyik, çünki qloballaşan dünyada kifayət qədər inkişaf etmiş ölkələr var ki, onların elmi nailiyyətlərindən biz istifadə etməliyik, sənayemizin strukturunu təkmilləşdirməliyik, emal sənayesinin ixrac potensialını artırmalıyıq, dünyaya daha elmtutumlu məhsullar ixrac etməliyik.

Sahib müəllimin də qeyd etdiyi kimi, cənab prezident bu infrastruktur layihələrindən danışarkən, valyuta ehtiyatları ilə bilavasitə əlaqədar olan energetikanı xüsusi olaraq qeyd etdi. Elektrik enerjisinin istehsalı artıb, yeni stansiyalar tikilir.Bəli,elektrik enerjisinin sahə ərazi quruluşunda böyük dəyişikliklər baş verəcək. Bu gün elektrik enerjisinin sahə quruluşunun, ərazi quruluşunun təkmilləşməsinə ehtiyac var. Çünki biz yeni sənaye müəssisələri, elmtutumlu sahələr yaradacağıq, müasir avadanlıqlar, texnologiyalar gətiriləcək, kənd təsərrüfatının mexanikləşmə səviyyəsi artacaq,

iri aqroparklar yaradılacaq ki, bununla da elektrik enerjisinə tələbat artacaq. Ona görə də cənab prezidentin elektrik enerjisi istehsalını artırmaq istiqamətində müəyyən etdiyi strategiya çox düzgündür.

Biz bu gün ixrac edirik. Bu meyli saxlamaq üçün gələcəkdə də Azərbaycanın elektrik enerji balansı daha da güclənməlidir, daha müsbət olmalıdır. Çünki bu avadanlıqların çoxu xaricdən alınır, onlara da valyuta ehtiyatları lazımdır.

Ümumiləşdirərək onu deyə bilərəm ki, Azərbaycan dövlətinin bu sahədə apardığı siyasət valyuta ehtiyatlarından səmərəli istifadə olunmasına, onların müasir texnologiyalara sərf edilməsinə, eyni zamanda, ixrac potensialımızın, onun strukturunun təkmilləşməsinə də müsbət təsir göstərəcəkdir. Biz tədiyyə balansımızı, ixrac, idxal balansımızı təhlil etməliyik, çalışmalıyıq ki, balans ixracın xeyrinə dəyişsin.

**Aparıcı:** ***Valyuta axınının qarşısını alaq, azaldaq, minimuma endirək.***

**Sahib Məmmədov:** Mən bu haqda bir qədər məlumat vermək istərdim. Hörmətli Ziyad müəllim ulu öndərimizin neft strategiyasına toxundu. Əlbəttə, bu gün o strategiya, qara qızılın "insan qızılına", insan kapitalına çevrilməsi ideyasının və cənab Prezident İlham Əliyevin bu məsələni diqqətdə saxlamasının nəticəsidir ki, ölkə iqtisadiyyatında bir şaxələnmə baş verdi, qeyri-neft sektorunun və bu fonda insan resurslarının inkişafı, konkret sistemli tədbirlərin həyata keçirilməsi, dövlət proqramlarının qəbulu və proqramlarda iqtisadiyyatın bütün sahələrinin inkişafı mümkün oldu. Əgər diqqət yetirsək, bu üç Dövlət Proqramının əsas ümumi məqsədi məhz ölkə iqtisadiyyatının diversifikasiyası, qeyri-neft sektorunun inkişafı ilə bağlıdır. 2004-cü ildən qeyri-neft sektorunun inkişafına diqqət yetirilir və məhz qeyri-neft sektorundan daxil olan gəlirlərin nəticəsidir ki, bu gün dünyada enerji daşıyıcılarının qiymətinin aşağı düşməsinə baxmayaraq, Azərbaycan iqtisadiyyatı yenə də inkişaf edir. Əlbəttə, əvvəlki dövrlə müqayisədə ola bilər ki, bir az zəif inkişaf edir, amma dayanıqlıq nümayiş etdirdi və bütün layihələr, xüsusilə sosial layihələr tam icra olundu, eyni zamanda, yeni beynəlxalq standartlara cavab verən müəssisələr yaradıldı, ixracyönümlü, rəqabətqabiliyyətli məhsullar istehsal edən obyektlər istifadəyə verildi.

Mən bir məqamı da qeyd edim. Əgər biz birinci Dövlət Proqramı çərçivəsində sadəcə olaraq yerli istehlak bazarının təmin olunması üçün müəssisələrin yaradılmasından danışırdıqsa, artıq indi yaradılan müəssisələr beynəlxalq standartlara cavab verir. Biz bu gün ənənəvi bazarlarla yanaşı,-yeni bazarların axtarışındayıq və konfransda da cənab prezident bu məsələyə xüsusi diqqət yetirdi. Görülən tədbirlər nəticəsində ixracımız 24,4 faiz artmışdır ki, bu da gələcəkdə yeni bazarların coğrafiyasının şaxələndirilməsi, yeni bazarlara çıxış imkanlarının genişləndirilməsi zərurətini ortaya qoyur. Ona görə də dövlət qurumlarının sahibkarlarla birlikdə bu məsələni diqqət mərkəzində saxlamalarını tövsiyə etdi. Lakin bunun üçün bazarların da adekvat olaraq müəyyənləşdirilməsi vacib məsələlərdən biridir.

**Aparıcı:** ***Bu yaxınlarda cənab prezident "MadeinAzerbaycan" brendinin xaricdə təsdiqi ilə bağlı fərman imzaladı. Hətta dövlət pul ayırır ki, xarici bazarlar araşdırılsın və öyrənilsin.***

***Burada bir məqama yenidən qayıtmaq istərdim. Cənab prezident dəfələrlə Azərbaycanın valyuta ehtiyatlarının artmasına toxunur və həm investisiyaların, həm də valyuta ehtiyatlarının həcminə görə Azərbaycan dünya ölkələri arasında faktiki aparıcı ölkələrdəndir. Bu barədə cənab prezident öz fikirlərini bildirir. Niyə cənab prezident valyuta ehtiyatlarını xüsusi qeyd edir? Dövlət başçısı bunu digər çıxışlarında qeyd edib, bildirib ki, valyuta ehtiyatları müstəqillikdir, qlobal miqyasda və bizim qlobal layihələri həyata keçirmək üçün imkanlarımızdır.***




***Ölkə iqtisadiyyatına 231 milyard dollar sərmayə qoyulub və yeri gəlmişkən, qeyd edim ki, bu sərmayələrin, demək olar ki, yarısı xarici sərmayələrdir. 1,9 milyon iş yeri yaradılıb, onun 1,4 milyonu daimidir. Son on dörd ilin nəticələrinə görə, maaşlar beş dəfədən, pensiyalar səkkiz dəfədən çox artıb. 3100-dən çox məktəb, 642 tibb müəssisəsi tikilib və yaxud təmir edilib, 43 olimpiya idman kompleksi inşa olunub, sahibkarlara güzəştli şərtlərlə 2 milyard manatdan çox kredit verilib. İki peykimiz var – telekommunikasiya və əraziləri müşahidə peykləri. 7 aeroport tikilib ki, onların da 6-sı beynəlxalq aeroportdur. Bax, budur valyutaların real nəticəsi.***

**Ziyad Səmədzadə:** Çox maraqlı məsələdir. Yəni, biz bəzən bu rəqəmləri təhlil edib, ümumiləşdirmələrə fikir vermirik. Cənab prezident çıxışlarında dəfələrlə deyir ki, əgər bizim iqtisadi müstəqilliyimiz olmasaydı,bizi o qədər lazımsız işlərə vadar edəcəkdilər ki, millətimiz inkişaf etməyəcəkdi. Azərbaycan iqtisadiyyatı heç vaxt indiki kimi güclü olmamışdır, niyə? Çünki Azərbaycan dövlətinin apardığı iqtisadi siyasət kompleks xarakter daşıyır. Dövlət Neft Fondu olmasaydı, bu valyuta ehtiyatları səmərəsiz istifadə olunacaqdı. Valyuta ehtiyatları olmasaydı, bizim müstəqilliyimiz olmayacaqdı. Azərbaycan dövlətinin valyuta ehtiyatlarının artması ölkənin müdafiə qabiliyyəti, iqtisadi potensialının güclənməsi, iqtisadi cəhətdən inkişaf etmiş ölkələr səviyyəsinə çatması, yoxsulluğun azaldılması, yeni iş yerlərinin yaradılması üçün çox önəmlidir. Hətta 2004-cü ildə cənab prezident bəyan etmişdi ki, hökumətin vəzifəsi yeni iş yerlərinin yaradılması ilə bilavasitə əlaqədar olmalıdır. Nə üçün? Çünki cənab prezident seçkilər ərəfəsində Azərbaycanın demoqrafik şəraitini tam təhlil etmişdi. O bilirdi ki, Azərbaycanda digər respublikalara nisbətən əhali də, əmək ehtiyatları da sürətlə artır. 2004-cü ildə dünyaya gələn insanlar artıq 2020-ci ildə, 2022-ci ildə əmək qabiliyyətli kateqoriyasına aid olurlar və ona görə də cənab prezidentin apardığı bütün iqtisadi siyasətin ana xətti xalqın səviyyəsidir. İş yerlərinin yaradılması nəyin hesabına ola bilər? Valyuta ehtiyatlarımız, öz daxili imkanlarımız hesabına investisiyalar olmasaydı, biz bunları yarada bilməzdik.

**Ziyad Səmədzadə:** Azərbaycana 231 milyarddan çox investisiya qoyulub. Bunun yarısı daxili investisiyalardır, bəs, yarısı nə vaxt formalaşıb? 10-15 ildir. Çünki bizim daxili imkanlarımız yox idi, biz xaricdən asılı idik, iqtisadiyyat dağılmışdı. Cənab prezidentin apardığı sistemli və kompleks siyasət, regional siyasətin üstünlüyü nədədir? Sovet dövründən də əvvəl Azərbaycan Çar Rusiyasının inkişaf etmiş sənaye ölkəsi idi, digər rayonlarda inkişaf yox idi, yalnız xırda-xırda müəssisələr vardı. Bu gün də cənab prezident bəyan edir ki, bu, uzunmüddətli bir proqramdır. Abşeron ərazisi respublikanın ərazisinin 28 faizidir, burada əhalinin məskunlaşması, istehsal olunan ümumi daxili məhsul, göstərilən xidmətlərin həcmi qat-qat yüksəkdir. Regional inkişaf proqramlarınəticəsində regionlarda da urbanizasiya prosesləri təkmilləşir, regionların ümumi inkişaf səviyyəsi artır.

**Aparıcı:** ***Təsadüfi deyil ki, bu gün faktiki olaraq Bakıdan regionlara, yəni əks istiqamətdə axın başlayıb.***

**Ziyad Səmədzadə:** Bəli, bu, bir nömrəli məsələdir. Əgər biz urbanizasiya proseslərini regional inkişaf proqramları ilə düzgün əlaqələndirə bilsək, çox uğurlu nəticələr əldə edəcəyik. Regionda balaca bir müəssisə bağlanırsa, regiona az investisiya qoyulursa, səbəblər araşdırılmalıdır. Hansısa bir regiona 50 milyon vəsait qoyulub, dövlət işini gördü, infrastrukturları yaratdı, qazı, elektrik enerjisini, yolları çəkdi, su təchizatını yaxşılaşdırdı. Qaldı yalnız sahibkarların investisiya qoymağı.

**Aparıcı:** ***Amma bütün bu işlərdən sonra yenə də dövlət konkret olaraq sahibkarların yanındadır.***

**Sahib Məmmədov:** Rövşən müəllim, mən bir məqamı da vurğulayım. Ümumiyyətlə, investisiya qoyuluşundan, sahibkarlığın inkişafından danışarkən, qeyd etmək lazımdır ki, ölkədə ictimai-siyasi sabitlik ən vacib amillərdən biridir. Əgər ölkədə ictimai sabitlik yerində deyilsə, onda investisiya cəlb olunmasından, sahibkarlığın inkişafından danışmaq olmaz. Məhz bu gün cənab prezidentin həyata keçirdiyi müdrik və düşünülmüş siyasətin nəticəsidir ki, həm xarici, həm də daxili investisiyalar ölkə iqtisadiyyatına, real sektora yönəldilir və xarici investorlara münasibətdə "açıq qapı" siyasəti həyata keçirilir. Yəni, qanunvericilik bunun üçün tam imkanlar yaradır, beləliklə də,investorlar ölkə iqtisadiyyatına vəsait qoyur, investisiya yönəldir və yeni istehsal, xidmət sahələri yaradırlar. Əlbəttə, bu, son dövrlərdə yaradılmış müəssisələrin sayında da özünü göstərir. Elə 2017-ci ilin statistikasına baxsaq, görərik ki, 11 min 900-dən artıq müəssisəyaradılmışdır. 177 mini daimi olmaqla, 221 min yeni iş yeri yaradılmışdır. Bunlar məhz ölkə iqtisadiyyatına, xüsusilə real sektora yönəldilmiş investisiyalardır.

Aqrar sahə də ölkə iqtisadiyyatının əsas prioritet istiqamətlərindən biridir. Son dövrlər kənd təsərrüfatında ənənəvi sahələrin inkişafı ilə bağlı görülən işlər, son iki ildə pambıqçılığın, tütünçülüyün, baramaçılığın və kənd təsərrüfatının digər sahələrinin inkişafı ilə bağlı cənab prezidentin tapşırığına uyğun olaraq görülən işlər və qəbul edilmiş dövlət proqramları ölkədə aqrar sahənin inkişafına öz töhfəsini verməkdədir. Pambıqçılıq sahəsində Dövlət Proqramı qəbul olundu, 2025-ci ilə qədər 500 min ton pambığın istehsalının hədəf kimi qarşıya qoyulduğunu nəzərə alsaq, artıq 207 min ton pambıq tədarük olunubdur. Pambıq sahəsində çalışan insanları sayı 200 mindir. Tütünçülük proqramı çərçivəsində 12 min ton tütün, baramaçılıq sahəsində isə 6 min ton baramanın istehsalı hədəf kimi qarşıya qoyulmuşdur. Bu istiqamətdə konkret tədbirlər nəzərdə tutulub, maliyyələşmə təmin edilir, dövlət qurumları və sahibkarlar birlikdə bu istiqamətdə səylərini birləşdirirlər. Artıq mövcud inkişaf özü ilə yeni tələblər doğurur və bu inkişafı nəzərə alaraq, iqtisadi səmərə əldə etmək və xərclərin məsrəflərini azaltmaqdan ötrü iri fermer təsərrüfatları yaradılır. Aqroparklarda iş xərcləri azaldır, maya dəyərini aşağı salır, istehsal olunan məhsuldarlığı artırır. Burada birlikdə istehsal olunan məhsulların ixrac imkanları artır, kooperasiya əlaqələri qurulur, assosiasiyalar yaradılır.

**Ziyad Səmədzadə:** Dünənki konfransın ən əlamətdar cəhətlərindən biri də o idi ki, konfransda çıxış edənlərin əksəriyyəti-Azərbaycan iqtisadiyyatının əsas sahələrini xarakterizə edən, təmsil edən sahibkarlar idi. Çıxışların hamısında yeni iş yerlərinin yaradılması haqda məlumat verilirdi. Bu, taleyüklü məsələdir. Hər layihədə bu məsələ öz əksini tapmalıdır. Layihə hazırlanır, pul ayrılır, dövlət bu qədər xərc çəkir, sərf edir, bəs, nə qədər iş yeri yaradılıb?

**Aparıcı:** ***Cənab prezidentin hər bir icra başçısına və sahibkara birinci sualı da məhz bununla əlaqədar oldu.***

**Ziyad Səmədzadə:** Nə qədər iş yeri yaradılıb? Biz bunları təhlil etsək, hər bir rayon öz ərazisində olan əmək ehtiyatlarını təhlil etsə, onun quruluşuna baxsa, gənclərin ölkədən çıxıb getməsinin səbəblərini araşdırsa, kəndlərimiz qat-qat gözəlləşər və urbanizasiya prosesləri təkmilləşər. Bu gün konkret sahələrdən misallar göstərildi ki, bu sahələrin inkişafı nə qədər əmək ehtiyatları cəlb edəcəkdir. Cənab prezidentin çıxışında o qədər fundamental istiqamətlər müəyyən edildi ki, onları təhlil etsək, konkret tədbirlər hazırlasaq, növbəti proqramlarda onlar öz əksini tapacaq ki, bunlar da bütünlükdə bizim inkişafımızdır.

**Sahib Məmmədov:** Əlavə olaraq mən sənayeləşmə sahəsinə də toxunmaq istərdim. Bilirsiniz ki, cənab prezidentin rəhbərliyi ilə uğurlu sənayeləşmə siyasəti həyata keçirilir. Müasir sənaye parkları, sənaye məhəllələri yaradılır və bu sənaye parklarına xüsusi güzəştlər tətbiq olunur, yəni sənaye parklarının rezidentləri 7 il müddətinə vergi, gömrük rüsumlarından azad olurlar və bu sənaye müəssisələrində yaradılan müəssisələr artıq öz bəhrəsini verir, artıq ixrac edirlər. İlk sənaye parklarından biri Sumqayıt Kimya Sənaye parkıdır. Onun rezidentlərindən biri və ilk rezidenti olan"Azertexnolayn" müəssisəsi, misal üçün, artıq öz məhsullarını ixrac edir. Bundan başqa, "Pestisid" zavodu istifadəyə verildi, Gübrə zavodu tikilir.

**Aparıcı:** ***Hətta Şüşə zavodunun tikilməsinə başlanılır.***

**Sahib Məmmədov:** Bəli, SOCAR Polimer Karbamid zavodu bu il istifadəyə veriləcək. Əlbəttə, bunlar hamısı idxaldan asılılığı azaldacaq, valyuta axınının qarşısını alacaq. Cənab prezident konkret olaraq göstərdi ki, görülmüş işlər nəticəsində uğurlarımız var, artıq özünü təmin etmə səviyyəsi 100 faizdir, hətta ixrac imkanlarımız da var. Amma bəzi məhsullar üzrə bir qədər azalma müşahidə olunur və bu aqroparklarda yaradılan müəssisələr işə düşdükdən sonra artıq istehsal olunan məhsullar idxaldan asılılığı 100 faiz azaldacaq, ixrac imkanları genişlənəcək ki, bu da dövlətin düşünülmüş siyasəti və qəbul olunmuş proqramlar çərçivəsində görülən işlərin nəticəsidir.

**Aparıcı:** ***Cənab prezident sahibkarlara bir neçə dəfə müraciət etdi. Birinci müraciət odur ki, sahibkarlar özləri, ümumiyyətlə, sosial məsuliyyət prinsipinə ciddi yanaşmalı, xüsusən "Abad" layihəsinə qoşulan, ailə təsərrüfatı ilə məşğul olan kiçik sahibkarlara kömək etməli və onların orta, böyük sahibkara çevrilməsinə yardımçı olmalıdırlar.***

***Digər bir məsələ, faktiki olaraq cənab prezidentin dediyi fikirlər yalnız müvafiq dövlət qurumları üçün deyil, sahibkarlar üçün konkret fəaliyyət proqramlarıdır, strateji fəaliyyət xəttidir. Məsələn, dövlət başçısı bildirdi ki, daxili bazarda mineral və qazlı sular sahəsində xaricə 48 milyon dollar, düyü sahəsində 36 milyon dollar, soya və ondan alınan məhsullar sahəsində 38 milyon dollar, dərman vasitələri sahəsində 211 milyon dollar, siqaret sahəsində 160 milyon dollar, trikotaj məhsulları sahəsində 100 milyon dollar, sabun, yuyucu vasitələr sahəsində 100 milyon dollar, şüşə və ondan hazırlanan məhsullar sahəsində isə təxminən 80 milyon dollar valyuta xaricə gedir. Yəni, bu, sahibkarlar üçün bir çağırış idi - daxili bazarda bu qədər boşluq var və siz həmin boşluğu doldurmaqla kifayət qədər valyuta qazana bilərsiniz.***

**Ziyad Səmədzadə:** Cənab prezidentin çıxışında, ən diqqəti cəlb edən məsələ sahibkarların sosial məsuliyyət məsələsidir. Artıq ölkədə yaranmış iqtisadi potensial, sahibkarların bir strateji resurs kimi formalaşmasının, demək olar ki, başa çatması, iri sahibkarlar sinfinin formalaşması istiqamətində atılan addımlar, sahibkarlara olan dəstək, güzəştlər, bütövlükdə, onların bir çox məsələlərini dövlətin öz üzərinə götürməsi tələb edir ki, sahibkarlar da sosial məsuliyyət prinsipinə əməl etsinlər. Kiçik sahibkarlarımız həddindən artıq çoxdur. Biz büdcə gəlirlərini formalaşdıranda, təhlil edəndəgörürük ki, kiçik sahibkarların sayı çoxdur, amma onlardan daxil olan vəsait çox azdır. Bunun səbəbləri araşdırılır, yəqin ki, konkret təkliflər müəyyən olunacaq. Amma iri sahibkarlar var, iri sahibkarlara edilən güzəştlər, ümumi götürsək, milyard dollarladır. Əgər 231 milyard pul qoyulubsa, bunun xeyli hissəsi özəl sektora, infrastruktur layihələrinə xərclənibsə və bu gün sahibkarlar infrastruktur layihələrindən bəhrələnirsə, deməli, dövlətin sosial məsuliyyət prinsipini onlardan tələb etməyə haqqı var və cənab prezident dövlət-özəl sektor münasibətlərində əməkdaşlığın yüksək formasını qeyd etdi. Konfransda sahibkarlar təbəqəsini təşkil edən, təmsil edən əsas insanlar iştirak edirdi. Bu, böyük etimaddır.

Bizim suvenirlərimiz xaricdə istehsal olunur. Cənab prezident bu məsələyə də toxundu. Azərbaycana gələn turistlərin sayı artır, turizm inkişaf edir. Ölkəyə gələn turist özü ilə suvenir aparmaq istəyir. Amma görəndə ki, bu suvenir kənarda istehsal olunur, onda Azərbaycan haqqında müəyyən fikirlər formalaşacaq. Bu, çox incə məsələdir, həm də milyonlardır, milyon dollarlardır. Əgər 2 milyon, 3 milyon, 5 milyon turist gələcəksə, hər biri buradan 30-40 manatlıq suvenir aparacaqsa və ya biz özümüz hədiyyə verəcəyiksə, görün, nə qədər puldur, eyni zamanda, yeni iş yerləridir. Xalçaçılığın bərpası, yeni fabriklərin tikilməsi, gənclərin ora cəlb olunması, Azərbaycan xalqının qədim adət-ənənələrinin, milli dəyərlərinin qorunması istiqamətində görülən bu tədbirlər, heç şübhəsiz, heyrətamizdir.

Cənab prezident çox ciddi bir məsələni nümayiş etdirdi: rayonlar arasında bir növ yarış olmalıdır. Nə üçün mən suyu çəkirəm, qazı çəkirəm, yolu çəkirəm, amma sənin rayonuna investisiya az gəlir? Bunun səbəbi nədir? Deməli, iqlim, investisiya mühiti daha da yaxşılaşmalıdır, bu sahədə özəl sektor çalışmalıdır, icra başçıları təşəbbüs göstərməlidirlər, onlar sahibkarlarla, sözün əsl mənasında, səmimi, işgüzar münasibət qurmalıdırlar ki, ora investisiya gəlsin. Əgər rayonlar arasında investisiya fərqi çox olsa,bu, həcminə görə düz olmaz. Təbii ki, Sumqayıt, Gəncə, Abşeronun potensialı böyükdür, onları kiçik rayonlarla müqayisə etmək olmaz.

**Aparıcı:** ***Əslində, cənab prezident ilk onluqda yer alan rayonların adlarını təsadüfən çəkmədi. Bu, eyni zamanda, həmin rayonlara və onluğa düşməyən digər rayonlara görə açıq siqnaldır, bir mesajdır, siz də çalışın ki, bu onluğa düşə biləsiniz, rəqabətdə özünüzü göstərəsiniz.***

**Sahib Məmmədov:** Əlbəttə. İcazə verin mən kiçik sahibkarlıqla bağlı məqama qayıdım. Deməli, bilirsiniz ki, ölkədə kiçik və orta sahibkarlığın inkişafına diqqət yetirilir. Bu, Strateji Yol Xəritəsində də öz əksini tapmışdır və dünya təcrübəsində də belədir. Dünyada, xarici ölkələrdə, inkişaf etmiş ölkələrdə, adətən, iri, yaxud transmilli şirkətlər kiçik istehsalı, hissələrin istehsalını bəzən kiçik sahibkarlara sifariş verirlər, yəni bu, onlar üçün səmərəli deyil və vaxtlarını, imkanlarını kiçik detalların hazırlanmasına sərf etmirlər. Bu həm də kiçik sahibklarlara bir dəstəkdir, onlara yeni maliyyə imkanlarıdır, eyni zamanda, onlarla əməkdaşlıqlarının inkişaf etdirilməsində əhəmiyyətli addımlardan biridir. Məhz bununla əlaqədar ölkəmizdə bu yaxınlarda cənab prezidentin müvafiq fərmanı ilə İqtisadiyyat Nazirliyinin nəzdində Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi publik hüquqi şəxs də yaradıldı. Bu agentliyin yaradılmasında əsas məqsəd ölkədə kiçik və orta sahibkarlığın inkişafına töhfə vermək, biznes fəaliyyətinə yeni başlamaq istəyənlərin dəstəklənməsi, onların maarifləndirilməsi, iri şirkətlərlə əlaqələrinin inkişaf etdirilməsi, qurulması, bazar araşdırmalarının aparılması, biznes planlarının hazırlanması, məhsullarının satışına qədər onların yanında olmaqdır. Əlbəttə, bu agentlik fəaliyyətə başlayandan sonra bu istiqamətdə çoxsaylı kompleks tədbirlər həyata keçiriləcək. Amma bu günə qədər İqtisadiyyat Nazirliyi bu istiqamətdə bir sıra tədbirlər həyata keçirib. Xüsusilə, yeni biznes fəaliyyətinə başlamaq istəyən qadın sahibkarların fəaliyyətinin dəstəklənməsinin təşviqi, onların istehsal etdikləri məhsulların geniş ictimaiyyətə çatdırılması istiqamətində tədbirlər həyata keçirilmişdir.

**Sahib Məmmədov:** Bəli, eyni zamanda, kiçik sahibkarların "Abad"a qoşulması istiqamətində ASAN xidmətlə birlikdə tədbir də təşkil olundu. Cənab prezidentin tapşırığına əsasən, bu istiqamətdə işlər daha da intensivləşdiriləcək, genişləndiriləcək və hesab edirəm ki, bu görüləcək tədbirlər ailə təsərrüfatlarının in-

kişafında çox vacib amillərdən biri olacaq.

**Aparıcı:** ***Burada bir məqam da var. Cənab prezident nəyə görə bildirir ki, kiçik sahibkarlara kömək olunmalıdır? Kiçik sahibkarlar, əsasən, öz büdcələrini, ailə büdcələrini formalaşdırırlar. Bu, bir amil.***

***İkinci bir amil, faktiki olaraq dövlət büdcəsini formalaşdıran məhz orta sahibkarlar təbəqəsidir. Bununla da, kiçik sahibkarların orta sahibkarlığa keçidinin şərtlənməsi istiqamətində önəmli addım atılıb.***

**Sahib Məmmədov:** Cənab prezident bu istiqamətdə özünüməşğulluq proqramına da toxundu, kiçik ailə təsərrüfatlarının inkişafını, özünüməşğulluq proqramının uğurlu icrasını, eyni zamanda, növbəti illərdə onun əhatə dairəsinin genişləndirilməsi və daha çox ailə təsərrüfatlarının özünü təmin etmə imkanlarının genişləndirilməsini qeyd etdi. Sadə bir misal, sahibkarlıq fəaliyyətinə başlamaq istəyən sahibkar bunun üçün hansı məqamdan başlayacağını bilmir, bu istiqamətdə məlumatlı deyil və İqtisadiyyat Nazirliyi bu istiqamətdə geniş maarifləndirmə tədbirləri həyata keçirir. Bunun üçün biznes-inkubatorlar yaradılır, xüsusilə regionlarda bu işlər geniş şəkildə həyata keçirilir. Bakıda da bu fəaliyyət həyata keçirilir və son görülmüş işlərin nəticəsi çox qənaətbəxşdir, sahibkarlarımız artıq dünənin sahibkarı deyil, onlar maarifləndirilmiş, müasir biliklərə yiyələnmiş sahibkarlardır, iş adamlarıdır və onların işə yanaşması istehsal etdikləri məhsulun rəqabətqabiliyyətliliyindən, ixracyönümlüyündən də görünür. Sahibkarlar artıq işə çox dərindən yanaşırlar, xarici təcrübəni öyrənirlər, araşdırırlar və bu istiqamətdə də dövlətin yaratdığı imkanlardan istifadə edirlər.

**Ziyad Səmədzadə:** Cənab prezidentin konfransdakı çıxışı giriş sözündən sonuna qədər bir-biri ilə əlaqəli məsələlərdir, yəni regionların inkişafı bütövlükdə dövlətin inkişafıdır. Məşğulluq məsələsində də, təbii ki, cənab prezidenti narahat edən məsələlərdən biri budur ki, hələ də işsizlər var, iş yerlərini biz daha sürətlə yaratmalıyıq, insanlar ələbaxımlıqdan uzaqlaşmalıdırlar. Yəni, bütövlükdə Azərbaycan cəmiyyəti özünün inkişafının elə bir mərhələsinə çatıb ki, iqtisadi inkişafla sosial inkişaf arasında sıx əlaqə formalaşıb.

İqtisadiyyat güclənir, gəlirlərimiz artır, sosial, pulsuz sahələr daha sürətlə inkişaf edir, eyni zamanda, biz sosial sahənin özünün inkişaf göstəricilərininгündən günə güclənməsinin şahidi oluruq.

**Aparıcı:** ***Ziyad müəllim, mən istərdim ki, cənab prezidentin 2018-ci ildə qarşıya qoyduğu hədəflərə toxunaq. Çünki həmin hədəflər ilk növbədə sosial çəkisi ilə diqqəti cəlb edir. Dövlət başçısı bildirdi ki, qazlaşdırma bu ilin sonuna qədər 95 faizə çatdırılmalıdır. Yeni böyük elektrik stansiyası, generasiya gücü 400 meqavat olan "Şimal-2" işə düşməlidir, eyni zamanda, bölgələrdə elektrik təsərrüfatının yenidən qurulması, müasirləşdirilməsi istiqamətində böyük investisiya layihələri icra olunmalıdır. İçməli su və kanalizasiya layihələri ilə bağlı işlər davam etdirilməlidir. Ən azı 100 min hektar suvarılmayan torpaqlara su verilməlidir. 2300 km avtomobil yolları, eyni zamanda, kənd yolları çəkilməlidir, şərti olaraq 40 yol adlandırılan layihə çərçivəsində minimum 600 kəndin yolu tikilməlidir. Altı şəhərdə - Qazax, Qobustan, Şəmkir, Quba, Naftalan və Goranboy şəhərlərində yeni rayon mərkəzi xəstəxanalarının, eləcə də Ələt Dəniz Ticarət Limanının tikintisi başa çatdırılmalıdır. Ələt Dəniz Ticarət Limanının tikintisi və Bakı-Tbilisi-Qars dəmir yolu: bax, budur Beynəlxalq Nəqliyyat Dəhlizinin Azərbaycana cəlb olunması.***

**Ziyad Səmədzadə:** Müstəqil Azərbaycan dövlətinin əldə etdiyi uğurlar içərisində Azərbaycanın dünyaya bir tranzit ölkə kimi tanınması mühüm əhəmiyyət daşıyır.

Azərbaycan strateji bir məkanda yerləşir. Qədim İpək Yolunun bərpası ilə əlaqədar olaraq irimiqyaslı işlər görülür. Cənab prezident Çinə səfər etdi və Çində bəyan etdi ki, biz "Bir kəmər, bir yol" qlobal layihəsində işləməyə hazırıq və bu istiqamətdə də işləri davam etdiririk.

Bakı-Tbilisi-Qars Dəmir yolunun açılması XXI əsrin ən mühüm tarixi hadisələrindən biridir. Azərbaycan vasitəsilə iki qitə birləşdi. Açılış mərasimində cənab Prezident İ.Əliyevin, Türkiyə Respublikasının Prezidenti R.Ərdoğanın çıxışı, eləcə də qonşu ölkələrin rəhbərlərinin çıxışları göstərdi ki, Azərbaycan böyük bir layihənin reallaşmasında fəal iştirak edir. Cənab prezident çıxışında dəmir yolu sahəsində görülən işləri yüksək qiymətləndirdi. Nə üçün? Çünki dəmir yolu Sovetlər İttifaqında ölkə iqtisadiyyatının qan damarı adlandırılıb. Son illərə qədər dəmir yolumuz o qədər də inkişaf etmirdi, çox zəifləmişdi, yük dövriyyəsi və sərnişinlərin sayı azalmışdı. Səbəblər çoxdur, dəmir yolunun köklü surətdə rekonstruksiyasına ehtiyac vardı. Amma bu gün Azərbaycanın dəmir yolu sahəsində qısa zaman kəsiyində böyük işlər görülüb. Yeni lokomotivlərin, təmir stansiyalarının, qatarların alınması, yük sahibləri ilə işlərin aparılması çox incə məsələdir. Sahib müəllim, siz nə qədər işlər aparırsınız ki, yüklər Azərbaycandan sürətlə keçsin. Biz burada bir balaca yubansaq, uduzarıq.

***Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin tikintisi iqtisadiyyata böyük valyuta axınını təmin etdi. Bu kəmərlər olmasa idi, biz neft-qaz resurslarımızı hara ixrac edəcəkdik? Mümkün olmazdı. On ildən çoxdur ki, Bakı-Tbilisi-Ceyhan fəaliyyət göstərir, on ildən çoxdur ki, qaz kəmərimiz Ərzuruma qədər qazımızı nəql edir və əgər bu layihələr olmasa idi, Bakı-Tbilisi-Qars da olmazdı, əgər bu olmasa idi, "Şahdəniz-2" də olmazdı, Cənub Qaz Dəhlizi - dəyəri 40 milyard dollardan çox olan layihə də olmazdı. Nə olacaqdı onda bizim həyatımız, nə olacaqdı bizim iqtisadi vəziyyətimiz? Təsəvvür etmək o qədər də çətin deyil. Ona görə bütün bu layihələr xalq qarşısında tarixi xidmətlərdir. Fəxr edirik ki, bunları icra etmişik və bu layihələr, eyni zamanda, uzunmüddətli inkişafımıza şərait yaradır. Biz indi 42 milyard dollar valyuta ehtiyatlarımıza malikik. Nəyin hesabına onları qazanmışıq? Enerji resurslarının ixracı nəticəsində. Bakı-Tbilisi-Ceyhan tikilməsə idi, bu da olmayacaqdı.***

*İlham ƏLİYEV*

Eyni zamanda, cənab prezident konfransda Abşeron camaatı üçün çox maraqlı olan vacib məsələyə toxundu - dairəvi dəmir yolu. Dairəvi dəmir yolunun çəkilməsi insanların vaxt itkisini azaldacaq. Ekologiyaya müsbət təsir edəcək, bütövlükdə, sərnişin daşınmasını artıracaq. Eyni zamanda, sürətli qatarlar olacaq. Çindən gələn qatarlar Azərbaycandan keçəcək, Avropaya gedəcək. Bütövlükdə, mən deyərdim ki, Qədim İpək Yolunun bərpası, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi Azərbaycanımız üçün daimi kapitaldır, daimi siyasi mövqedir, daimi gəlir mənbəyidir və ən birincisi, ən başlıcası dövlətimizin iqtisadi müstəqilliyi üçündür. Alternativ marşrutları, yolları, neft və qaz kəmərləri olan ölkələr daha güclü olurlar.

**Aparıcı:** ***Ziyad müəllim, bunu açıq dənizə çıxışı olmayan bir ölkə həyata keçirir.***

**Ziyad Səmədzadə:** Açıq dənizə çıxışı olmayan ölkə bu gün dünyada aparıcı nəqliyyat mərkəzlərindən birinə çevrilir.

**Sahib Məmmədov:** Azərbaycanın açıq dənizə çıxışı yoxdur, amma cənab prezidentin rəhbərliyi ilə yaradılmış biznes imkanlarının nəticəsidir ki, bu gün Azərbaycan Şimal-Cənub, Şərq-Qərb dəhlizlərinin ortasındadır və bütün yükdaşımaların məhz Azərbaycandan keçməsi üçün imkanlar yaradılır. Bunun üçün yükdaşımalar sahəsində Vahid Koordinasiya Şurası yaradıldı və tariflərdə də güzəşt tətbiq olundu. Yükdaşıyıcıların Azərbaycana cəlb olunması yüklərin Azərbaycan vasitəsilə digər ölkələrə çatdırılması məqsədini daşıyır.

Əlbəttə, Bakı-Yalama, Bakı-Astara istiqamətində dəmiryol infrastrukturunun tam müasir standartlar səviyyəsində yenidən qurulması, sürət məsələsinin təmin olunması çox vacib məsələlərdən biridir. Əlbəttə, bu, qeyd edilən sahənin də cəlbediciliyini artıracaq.

**Ziyad Səmədzadə:** Bu yaxınlarda Milli Məclisə cənab prezidentin bilavasitə təşəbbüsü ilə "Ələt iqtisadi zonası haqqında" xüsusi qanun layihəsi daxil olub. Çox böyük, nəhəng bir hadisədir. Dünyanın ən aparıcı şirkətləri bu sahədə çalışan Ələt iqtisadi zonasını idarə edəcəklər. Ələt iqtisadi zonasının yaradılması Azərbaycanın tranzit imkanlarını genişləndirəcək. Digər tərəfdən, milli iqtisadiyyatımızın inkişafı üçün İqtisadiyyat Nazirliyi, bütövlükdə, sənaye parklarının, sənaye məhəllələrinin yaradılması istiqamətində, eləcə də Ələt iqtisadi zonasında tikintinin vaxtında başa çatdırılması ilə əlaqədar böyük işlər görür. Biz komitə üzvləri ilə Sumqayıt Texnoparkında, Neftçalada, Balaxanıda olduq, orada böyük işlər görülür ki, bunlar da Azərbaycanın keyfiyyətli, dayanıqlı inkişafına xidmət edən layihələrdir.

**Sahib Məmmədov:** Mən bir məqamı da qeyd edim. Bütün bu görülən işlərin nəticəsidir ki, bu gün özəl sektorun ümumi daxili məhsulda payı 80 faizi, məşğulluqda 75 faizi ötübdür, yəni bu görülən işlər beynəlxalq təşkilatların, beynəlxalq maliyyə qurumlarının hesabatından da yan keçmir. Dünyanın ən mötəbər təşkilatlarından biri olan Davos Dünya İqtisadi Forumu son hesabatında ölkəmizin mövqeyini 137 rəqabətqabiliyyətli iqtisadiyyat arasında 37-ci yerdən 35-ci yerə qaldırdı. İnklüziv inkişaf indeksinə görə, inkişaf etməkdə olan ölkələr arasında Azərbaycan üçüncü ilk üçlükdədir. Bu, çox böyük nailiyyətdir. Bundan başqa, Dünya Bankının hazırladığı, hər il dərc etdiyi Duinq-biznes-hesabatında ölkəmizin mövqeyi ötən il səkkiz pillə irəliləyərək, 190 ölkə arasında 65-ci yerdən 57-ci yerə qalxmışdır. Ölkədə biznes mühitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən genişmiqyaslı islahatların tətbiqi çox vacib məsələlərdən biridir. Çünki bu hesabatlar sahibkarlar arasında keçirilən anonim sorğular əsasında hazırlanır və bu hesabatlarda ölkəmizin mövqeyi hər il yaxşılaşır.

**Ziyad Səmədzadə:** Bir məsələni də qeyd edim. Biz iyirmi altı ildir ki, müstəqil dövlətik. Ermənistanın Azərbaycana təcavüzü, onun yaratdığı problemlər, müharibə şəraitində yaşayan bir dövlət, görün, çətinliklərlə üzləşdiyi bir dövrdə bu qədər nailiyyətlər əldə edib.

Bu günlərdə Britaniya ilə Avropa İttifaqı arasında bir saziş imzalandı. Onlar keçid dövrü kimi 21 ay vaxt istədilər. Azad iqtisadiyyatın, tam liberal iqtisadiyyatın yüz illərlə, iki yüz illərlə formalaşdığı dövlətdə bir qrupdan çıxıb başqa bir qrupun daxilinə keçmək üçün keçid dövrü istədilər. Azərbaycan - sərt inzibati sistemdən, planlı sistemdən azad bazar münasibətlərinə keçən bir dövlət bütün təsisatları yenidən yaratdı, yenidən dövlət qurdu,-yenidən iqtisadi-siyasi sistem yaratdı və 2009-cu ildə cənab prezident bəyan etdi ki, Azərbaycan iqtisadiyyatında keçid dövrü başa çatıb. Müqayisə edək, 300 illik, 250 illik tarixi olan bir ölkə adi bir qurumun tərkibindən çıxmaq üçün sənədləşmə və sairə üçün iki il vaxt sərf edir.

**Aparıcı:** Ziyad müəllim, burada bir məqam da var və onunla bağlı sizin də, Sahib müəllimin də fikirlərini eşitmək istərdim.

Biz bu gün istər regional, istər qlobal miqyasda qazanılan uğurlardan danışırıq. Ən ucqar dağ kəndinə çəkilən yollar, qazlaşdırma, su ilə təchizat, bütün bunlar barədə ictimaiyyətə məlumat veririk, təhlil edirik, amma siz də qeyd etdiniz ki, bütün bunlar olmaya da bilərdi. Azərbaycan, əlbəttə ki, bu gün inkişaf göstəricisinə malikdir, qlobal miqyasda ölkəmiz tanınır, beynəlxalq reytinqlərdə Azərbaycanın yüksək pillələrdə qərarlaşması bir vətəndaş kimi hər birimizi qürurlandırır. Amma qeyd edirik ki, bütün bunlar olmaya da bilərdi. Bəs, bunlar nəyə görə oldu, bunların baza hissəsi nədən ibarətdir?

**Ziyad Səmədzadə:** Sadədir, o mənada ki, Azərbaycan müstəqil siyasət yeridib, ulu öndər Heydər Əliyevin qurduğu Azərbaycan dövlətinin davamlı olması üçün böyük işlər görüb. 1994-cü ildə "Əsrin müqaviləsi"ni imzalayan zaman ulu öndər demişdi: "İllər keçəcək, Azərbaycan dünyaya bir günəş kimi doğacaqdır". Müstəqil siyasətimiz, milli maraqları ön plana çəkməyimiz, Azərbaycan xalqının mənafeyini hər şeydən üstün tutmaq - bütün bunlar əldə olunan uğurlardır. Bizi qorxutmaq, təzyiq etmək istəyirdilər, adıçəkilən layihələrlə əlaqədar Azərbaycana həddindən artıq təzyiqlər olub. Amma İlham Əliyev bu təzyiqlərə dözdü, Azərbaycan xalqının milli maraqlarını, dövlət və iqtisadi müstəqilliyini əsas tutaraq, Azərbaycanın gələcək inkişaf imkanlarını daha da genişləndirdi.

**Sahib Məmmədov:** Əlbəttə, hörmətli Ziyad müəllimin qeyd etdiyi kimi, əgər xalqımızın ümummilli lideri Heydər Əliyevin uğurlu neft strategiyası, cənab prezidentin düşünülmüş siyasəti olmasa idi, bugünkü uğurlardan danışmaq olmazdı. Məhz cənab prezidentin rəhbərliyi ilə görülmüş işlər və onun siyasətinin əsasında vətəndaş amilinin durması bu gün görülən işlərə öz töhfəsini verir, ölkəmizin inkişaf etməsinə, çiçəklənməsinə şərait yaradır və hesab edirəm ki,bu görülən işlər gələcəkdə də ölkəmizin inkişaf etməsinə, dünyada öz layiqli yerini qoruyub saxlamasına təkan verəcəkdir.

**Aparıcı:** ***Bir sözlə, hədəflər aydındır, yaxın, orta və uzaq perspektiv üçün strateji fəaliyyət proqramlarımız var. Cənab prezidentin tapşırığına uyğun olaraq, addımlar atmaq və hamılıqla ölkəmizi irəli aparmaq lazımdır.***

# Daha bir Azərbaycan-Almaniya birgə müəssisəsi yaradıla bilər

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, bunu iqtisadiyyat naziri Şahin Mustafayev ölkəmizdə səfərdə olan Almaniya İqtisadiyyatının Şərq Komitəsinin sədri Volfqanq Büxele ilə görüşündə deyib. Görüşdə iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi, o cümlədən investisiya, sənaye, ölkəmizdə yaradılan sənaye zonalarında alman şirkətlərinin iştirakı və digər məsələlər müzakirə olunub.

Nazir Şahin Mustafayev vurğulayıb ki, ölkələrimiz arasında əlaqələr inkişaf edir. Əməkdaşlığın genişləndirilməsində qarşılıqlı səfərlər, xüsusilə də dövlət başçılarının səfərləri əhəmiyyətli rol oynayır. Bildirilib ki, indiyədək ölkələrimiz arasında 70-ə yaxın sənəd, o cümlədən iqtisadi sahədə investisiyaların təşviqi və qorunması, ikiqat vergitutmanın aradan qaldırılması haqqında sənədlər imzalanıb. Ticarət dövriyyəsinin həcminə görə Azərbaycanın ticarət tərəfdaşları arasında Almaniya 5-ci yerdədir. Azərbaycanın Mərkəzi Avropa üzrə ticarət nümayəndəliyi, həmçinin Almaniyanı əhatə edir. Bu nümayəndəlik Almaniya ilə ticarət əlaqələrinin inkişafında önəmli olacaq. Hazırda Azərbaycanda 200-dən çox alman şirkəti fəaliyyət göstərir. Almaniya tərəfindən əsas kapitala 555,8 milyon ABŞ dolları həcmində investisiya qoyulub. Almaniyanın KfW Bankı, Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ), ölkələrimiz arasında Ticarət və İnvestisiyalar üzrə Yüksək Səviyyəli İşçi Qrupu, Alman-Azərbaycan Xarici Ticarət Palatasının fəaliyyəti də ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafı baxımından önəmlidir.

Bildirilib ki, hər iki ölkənin işgüzar dairələrinin iştirakı ilə indiyədək çoxsaylı biznes-forum və işgüzar görüşlər keçirilib, Azərbaycan 2017-ci il və bu ilin əvvəlində Almaniyada keçirilmiş müxtəlif sərgilərdə iştirak edib, Berlində Trans-Xəzər Şərq-Qərb Ticarət və Tranzit Dəhlizinin təşviqinə həsr olunmuş forum keçirilib. Qeyd olunub ki, menecer təlimi sahəsində əməkdaşlıq proqramı çərçivəsində 2009-2017-ci illərdə 338 sahibkar və gənc menecer Almaniyada ixtisasartırma kursu keçib. Bundan başqa, Sumqayıt Kimya Sənaye Parkında Almaniya təcrübəsi əsasında sənaye sahəsində Peşə Tədris Mərkəzi yaradılır.

Görüşdə nazir Şahin Mustafayev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin ədalətli mövqeyini bir daha diqqətə çatdırıb, Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni fəaliyyəti olan alman şirkətlərinə dair məlumatı Almaniya tərəfinə təqdim edib, bunun yolverilməz olduğunu vurğulayıb.

İqtisadiyyatın müxtəlif sahələrində əməkdaşlıq perspektivlərinə dair fikirlərini bölüşən nazir Şahin Mustafayev qeyd edib ki, əczaçılıq, maşınqayırma, elektrotexniki avadanlıqların və kənd təsərrüfatı texnikasının birgə istehsalı, neft-kimya, nəqliyyat və tranzit yükdaşımaları sahələrində əməkdaşlıq imkanları genişdir. Azərbaycanda yaradılan sənaye zonalarında investorlar üçün yaradılan şərait və güzəştlər barədə məlumat verən nazir Şahin Mustafayev qeyd edib ki, alman şirkətləri sənaye zonalarına investisiya yatıra bilərlər. 2018-ci ildə istifadəyə veriləcək "SOCAR Polimer" zavodunun istehsal edəcəyi məhsullarla bağlı da birgə müəssisə yaradıla bilər. Azərbaycanda yaradılmış nəqliyyat infrastrukturu barədə danışan iqtisadiyyat naziri Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu, Şimal-Cənub nəqliyyat dəhlizi, Trans-Xəzər Şərq-Qərb



Ticarət və Tranzit Dəhlizi barədə məlumat verib, alman şirkətlərinin ölkəmizin tranzit imkanlarından yararlanmağa və Ələtdə yaradılacaq Azad İqtisadi Zonaya dəvət edib. Şərq Komitəsi tərəfindən Qərbi Balkan ölkələri və Ukrayna üçün elan edilən təqaüd proqramına Azərbaycanın salınmasının təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyəti diqqətə çatdırılıb. Bundan başqa, Azərbaycanda alman tibb müəssisələrinin nümayəndəlikləri yaradıla bilər.

Almaniya İqtisadiyyatının Şərq Komitəsinin sədri Volfqanq Büxele ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişaf etdiyini və alman şirkətlərinin Azərbaycan iqtisadiyyatına maraq göstərdiklərini vurğulayıb, əməkdaşlıq perspektivlərinə dair fikirlərini bölüşüb. Volfqanq Büxele Azərbaycanın işğal altında olan ərazilərində alman şirkətlərinin fəaliyyəti məsələsinin araşdırılacağını və bu barədə Azərbaycan tərəfinə məlumat veriləcəyini bildirib.

Görüşdə iştirak edən Almaniyanın kənd təsərrüfatı texnikasının istehsalı, infrastruktur, enerji və qaz, yükdaşımalar sahəsində fəaliyyət göstərən şirkətlərinin nümayəndələri təmsil etdikləri müəssisələrin fəaliyyəti və əməkdaşlıq imkanları barədə məlumat veriblər.

# AZƏRBAYCANDA İNNOVASİYA İQTİSADİYYATININ FORMALAŞDIRILMASI VƏ İNKİŞAFI PROBLEMLƏRİ



**(əvvəli ötən sayımızda)**

**İnnovasiya** innovasiya iqtisadiyyatının əsas elementi kimi çıxış edir. "İnnovasiya" ifadəsi politoloqlar tərəfindən ilk dəfə XVI əsrdə işlədilmişdir ki, bu da bir ölkənin mədəniyyətinin başqa ölkələrdə yenidən təzahür etməsi mənasını daşıyırdı. Lakin innovasiya ifadəsinə müasir baxışı XX əsrin əvvəllərində yeni iqtisadi kateqoriya kimi elmi dövriyyəyə Avstriya (sonralar Amerika) alimi Jozef Aloiz Şumpeter daxil etmişdir. Latıncadan tərcümədə ("in" - daxilində, "novus" – yeni) innovasiya termini "yenilik" deməkdir.

İngilis dilində "innovation" iki məna daşıyır. Bunlardan birincisi yeni ideya, üsul və ya ixtira, ikincisi isə hər hansı bir yeniliyin tətbiqidir.

Fransız dilində "innovation" yenilik, yeni tətbiq edilmiş deməkdir. Rus sözü "novovvedenue" (yenilikşünaslıq) innovasiyanın sinonimidir.

Əslində, innovasiya sistemin bir haldan ondan daha üstün başqa hala keçməsinə şərait yaradan mühitə yeni sabit elementlər (yeniliklər) daxil edən məqsədyönlü dəyişikliklər deməkdir.

İnnovasiya iqtisadiyyatının təşəkkülü dövrünə yaxın "innovasiya" ifadəsi iqtisadiyyat elmində özünə möhkəm yer tutmuşdur. Bununla yanaşı, müxtəlif müəlliflər bu terminin fərqli izahını təklif edirlər. Vaxtilə biz innovasiyaya birmənalı baxmağı təklif etmişdik, lakin innovasiyaya yanaşmalar burada özünə möhkəm yer tutduğundan ona yenidən baxmağı lazım bilirik.

Birinci yanaşma – innovasiya yeni mütərəqqi məhsulun, texnologiya metodu və s. şəkildə olan yaradıcılıq prosesinin nəticəsidir.

İkinci yanaşma innovasiya fəaliyyətində olan məmulatların, elementlərin və prinsiplərin əvəzinə yenilərinin daxil edilməsi prosesidir.

Üçüncü yanaşma – innovasiya ideyadan başlayaraq onun layihələndirilməsi, layihənin həyata keçirilməsi və alınmış yeni məhsulun bazarda reallaşdırılması proseslərinin məcmusudur.

İnnovasiya iqtisadiyyatının daha dərindən öyrənilməsində innovasiyanın təsnifatının rolu olduqca yüksəkdir. İnnovasiyanın təsnifatı müxtəlif əlamətlərə görə verilir. Bu əlamətlərdən ən geniş yayılmışları: tətbiq formasına görə; yeniliyin səviyyəsinə dəyişdirilməsi və əhəmiyyətin (mənanın) dərinliyinə görə; yayılma sferasına görə. Burada biz innovasiyanın yalnız tətbiq sferasına görə onun təsnifatı haqqında məlumat verəcəyik. Tətbiq sferasına görə innovasiyanın təsnifatına aşağıdakılar aid edilir:

- texnoloji (istehsal) – istehsal edilən nəsil və modellərin dəyişdirilməsi yolu ilə elmi-texniki nailiyyətlərin istehsal və istehlakda reallaşdırılması, texnikanın tətbiqi, texnoloji uklad və texnoloji istehsal üsulları, texnoloji innovasiyalar isə, öz növbəsində, innovasiya məhsullarına və innovasiya proseslərinə bölünürlər;
- ekoloji - ətraf mühitin çirklənməsini azaldır, zəruri tullantıların təmizlənməsini, xammalın tullantısız emalını, tullantıların zərərsizləşdirilməsini, yaşayış mühitinin yaxşılaşdırılmasını təmin edən yeni texnologiyalar və məhsullar;
- idarəetmənin təşkili – daha səmərəli əmək bölgüsü kooperasiya formalarının, istehsalın təşkilinin, istehsal və qeyri-istehsal fəaliyyətinin idarə edilməsi metodlarının tətbiq edilməsi;
- iqtisadi – yeni iqtisadi institutların mənimsənilməsi, məhsulların bölüşdürmə, mübadilə üsullarının, bazar institutlarının və s. formalaşdırılmasına istiqamətlənmə;
- sosial-siyasi – cəmiyyətin sosial təşkilində və sosial siyasətində, siyasi diplomatiya formalarında, millətlərarası və beynəlxalq münasibətlərdə yeni ideyalar reallaşdırır;
- dövlət hüququ – yeni dövlət institutları, demokratik hüquqlar, qanunverici aktlar, dövlət idarəetmə üsulları, hüquq qaydalarının həyata keçirilməsi və s.
- mənəvi sferada – elmdə (yeni hipotezlər, konsepsiyalar, paradiqmalar, nəzəriyyələr), mədəniyyətdə (yeni bədii üslublar, memarlıq formaları və s.), təhsildə (tərkibində, metodlarında, tədris texnikasında dəyişikliklər), etikada (etik normaların dəyişməsi), ideologiyada (insanların dini həyatında, dünyagörüşündə, məqsədyönümündə) yeniliklər;
- hərbidə - daha güclü və dağıdıcı silahların, onlardan qorunma vasitələrinin, qoşunların təşkili formalarının, hərbi nəzarət üsullarının və s. istifadə edilməsi. Qeyd edilənlərdən bu nəticəyə gəlmək olar ki, innovasiyaların tətbiq sferaları insan fəaliyyətinin bütün sahələrini əhatə edir.

İnnovasiya iqtisadiyyatının inkişafının əsasını innovasiya fəaliyyəti təşkil edir. Deməli, ölkədə innovasiya iqtisadiyyatının inkişaf etdirilməsi birbaşa innovasiya fəaliyyətinin gücləndirilməsindən asılıdır.

İnnovasiya fəaliyyəti yenilik ideyası, işlənilmə, tətbiq, mənimsənilmə, istehsal, diffuziya və innovasiyaların kommersiyalaşdırılması üzrə məqsədyönlü tədbirlər sistemidir.

İnnovasiyaya olan yanaşmalara müvafiq olaraq innovasiya fəaliyyətinə də müxtəlif təriflər verilmişdir. Fikrimizcə, müəyyən etdiyimiz aşağıdakı tərif daha yığcam və əhatəlidir:

"İnnovasiya fəaliyyəti innovasiya prosesinin bütün mərhələlərində və innovasiyanın infrastrukturunda yerinə yetirilən fəaliyyətlərin məcmusudur".

İnnovasiya iqtisadiyyatının innovasiya fəaliyyəti təkcə ən yüksək bilik səviyyəsilə məhdudlaşmır. Bu, insanların həyat səviyyəsinin yüksəldilməsinə, təbiətdən səmərəli istifadə olunmasına, ətraf mühitin qorunmasına yönəldilmiş tədbirlərlə yanaşı, mənəvi-əxlaqi məzmuna da malikdir.

İnnovasiya fəaliyyəti meqafəaliyyət olmaqla bərabər, innovatorların, qrupların, kütlələrin fəaliyyət subyekti kimi maddi-praktiki təcrübi fəaliyyətdir.

İnnovasiya fəaliyyətini həyata keçirən insanların bir çoxu təşkilatlarda fəaliyyət göstərərək müxtəlif funksiyaları yerinə yetirməklə innovasiya prosesində iştirak edirlər. Bəziləri ideya və layihənin müəllifidirlər, ikincilər direktor və menecer kimi innovasiya layihələrinin təşkilatçılarıdır, üçüncülər marketoloq kimi yeniliyə olan tələbatı öyrənib proqnozlaşdırırlar, onun bazarda irəliləməsi üsullarını müəyyən edirlər, dördüncülər bu yeniliyin hazırlanması üçün texniki sənədləri hazırlayırlar, beşincilər yeniliklərin icraçılarıdır.

İnnovasiya iqtisadiyyatının formalaşdırılmasında əsas yer tutan göstəricilərdən biri ölkədə tədqiqat və inkişafa çəkilən xərclərin məbləğidir. Bu göstərici ümumi daxili məhsulda (UDM) tədqiqat və inkişafa çəkilən xərclərin xüsusi çəkisi ilə müəyyən edilir. Bu göstəriciyə görə, ən öndə gedən dövlətlər Cənubi Koreya (4,3%), İsrail (4,2%) və Finlandiyadır (3,6). YUNESCO-nun 2013-cü il məlumatlarına əsasən, bu göstəriciyə görə Azərbaycan 0,2%-lə dünya ölkələri içərisində 75-ci yeri tutur. Yaxın gələcəkdə imkan düşdükcə, bu göstəricinin səviyyəsini ölkəmizdə yüksəltmək lazımdır.

İnnovasiya iqtisadiyyatının formalaşdırılmasında onun infrastrukturunun inkişaf səviyyəsi mühüm rol oynayır. İnfrastrukturun inkişaf səviyyəsi nə qədər yüksək olarsa, ölkədə bir o qədər yüksək texnologiyalar inkişaf etdirilə bilər. Yüksək texnologiyalar isə iqtisadi inkişafın əsasıdır. Yalnız yüksək texnologiyalar əsasında ölkədə istehsal olunan məhsullar dünya bazarlarına çıxarıla bilər.

Yüksək texnologiyaların inkişafı üzrə ölkədə genişmiqyaslı işlərin aparılması zəruridir. Bu məqsədlə Azərbaycanın xalq təsərrüfatı sahələrində geniş tədqiqatlar aparılmalı və alternativ sahələr seçilməlidir. Fikrimizcə, ölkəmizdə polimer materialların və neft-kimya məhsullarının istehsalı, kənd təsərrüfatında isə seleksiya sahəsi üzrə yüksək texnologiyalar yaradıla bilər. Nəticədə, yaradılan belə texnologiya iqtisadi inkişafın 5-ci və 6-cı dalğasının ukladına verilən töhfə olmağa layiqdir.

İnnovasiya sahibkarlığının inkişaf etdirilməsinin ölkədə innovasiya iqtisadiyyatının formalaşmasında rolu olduqca yüksək olduğundan bu barədə ayrıca bir məqalədə mövzunu davam etdirəcəyik.

İnnovasiya fəaliyyətinin gücləndirilməsində əhalinin innovasiya fəallığı mühüm rol oynayır. İnnovasiya fəallığı dedikdə, əhalinin innovasiya ilə məşğul olmaq marağının və imkanlarının olması nəzərdə tutulur.

Əhalinin innovasiya fəallığının yüksəldilməsi üçün aşağıdakı istiqamətlərdə tədbirlər həyata keçirilməlidir:

- innovasiya fəallığının hüquqi bazasının yaradılması;
- kütləvi informasiya vasitələrində geniş maarifləndirmə işlərinin aparılması;
- innovasiya fəallığının motivləşdirilməsi;
- təhsil sistemində innovasiya sahəsi üzrə kadr hazırlığına başlanılması;
- innovasiya sahəsində mütəmadi fəaliyyət göstərən kursların təşkil edilməsi;
- innovasiya ideyaları üzrə müsabiqələrin keçirilməsi və qaliblərin mükafatlandırılması və s.

Qeyd edilən tədbirlərin həyata keçirilməsi əhalinin innovasiya fəallığını yüksəldər, nəticədə ölkədə innovasiya fəaliyyəti güclənər. Bu isə, öz növbəsində, innovasiya iqtisadiyyatının formalaşmasına və inkişafına əhəmiyyətli dərəcədə təkan vermiş olar.

**Albert Tağıyev,**
**Sumqayıt Dövlət Universitetinin dosenti,**
**Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasının akademiki**

## "AtaSığorta" ASC endirimli sığorta məhsulları təqdim edir

"AtaSığorta" ASC sığorta bazarına iki yeni kasko məhsulunun satışını çıxarıb. Bunlar "SƏRFƏLİ SIĞORTA" və "QOŞA KASKO" məhsullarıdır. QOŞA KASKO sığorta məhsulu əsasən iki avtomobili olanlar üçün nəzərdə tutulub. Belə ki, müştərinin iki avtomobili varsa, birinci avtomobil 3,5% tariflə, ikinci avtomobil isə 50% endirimlə, yəni 1,75%-lə sığortalanır. Başqa sözlə, 10 min manatlıq 1-ci avtomobilin kasko sığortası 350 manatdırsa, 2-ci 10 min manatlıq avtomobilin kasko sığortası 175 manata başa gəlir.

"Sərfəli Sığorta" kasko sığorta məhsulu müştərilərə öz avtomobillərini yarı qiymətə sığortalamaq və nəticədə vəsaitlərinə qənaət etmək imkanı verir. Belə ki, sığorta müqaviləsi bağlanan zaman Sığortalı sığorta haqqının birinci yarısını ödəyir. İkinci yarısı isə yalnız sığorta müddəti ərzində baş vermiş sığorta hadisəsi üzrə sığorta ödənişi həyata keçirildiyi təqdirdə sığortalı tərəfindən ödənilir. Lakin sığorta müddəti ərzində sığorta hadisəsi baş vermədiyi təqdirdə ikinci yarısı sığortalı tərəfindən ödənilmir. Məsələn: dəyəri 10 000 AZN olan avtomobili 100 AZN azadolma ilə sığortalamaq üçün müştəri 400 AZN sığorta haqqı ödəməlidirsə, cəmi 200 AZN (50%-i) ödəyir. İl ərzində sığorta hadisəsi baş vermədiyi halda, sığorta haqqının ikinci hissəsini ödəmək lazım olmayacaq.

Sərfəli KASKO məhsulu istehsal tarixi 2000-ci ildən yuxarı, bazar dəyəri 10-60 min manat olan avtomobillərə şamil edilir. Azadolma məbləği adi qaydada 100 manat, avtomobil kommersiya məqsədi ilə istifadə ediləndə isə 1000 manat təyin edilir.

## İFC Azərbaycanda ixracyönümlü müəssisələrə investisiya yatırmağa hazırdır

Beynəlxalq Maliyyə Korporasiyası (İFC) Azərbaycanın müxtəlif istehsal sahələrində, o cümlədən ixracyönümlü sənaye sahələrində rəqabətqabiliyyətli müəssisələrə investisiya yatırmağa hazırdır. Trend-in məlumatına görə, bu barədə qurumun regional direktoru Yan van Bilsen deyib.

Regional direktorun sözlərinə görə, rəqabətqabiliyyətli qeyri-neft iqtisadiyyatının yaradılması ölkədə gələcək iqtisadi artım və iş yerlərinin açılması üçün vacib amildir:

"Bu, yalnız özəl sektorun potensialından istifadə edərək əldə edilə bilər ki, bu da iqtisadiyyatda investisiya qoyuluşunu, məhsuldarlığı və davamlılığı artıracaq. Biz müxtəlif istehsal sahələrində, o cümlədən ixracyönümlü sənaye sahələrində şəffaf və yaxşı idarə olunan rəqabətqabiliyyətli müəssisələrə investisiyalar üçün açığıq. İFC Azərbaycanda, xüsusilə də enerji və nəqliyyat sektorunda investisiya layihələrində iştirak etməyə hazırdır". Yan van Bilsen bildirib ki, korporasiya, eyni zamanda, hökumətin infrastrukturun təkmilləşdirilməsinə göstərdiyi diqqəti alqışlayır.

Qeyd edək ki, Azərbaycan 1995-ci ildən Beynəlxalq Maliyyə Korporasiyasının üzvüdür. İndiyə qədər İFC Azərbaycanda maliyyə xidmətləri, infrastruktur və istehsal sahələrini əhatə edən layihələrə 473 milyon dollar ayırıb.

## Mərkəzi Bank uçot dərəcəsini azaltdı

Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti 12 fevral 2018-ci il tarixdə uçot dərəcəsinin 15%-dən 13%-ə, faiz dəhlizinin yuxarı həddinin 18%-dən 16%-ə, aşağı həddinin isə 10%-dən 8%-ə endirilməsi barədə qərar qəbul etmişdir.

Faiz dəhlizinin parametrləri haqda qərar faktiki orta illik inflyasiyanın birrəqəmli trayektoriyaya daxil olması, inflyasiyanın azalmasına dair proqnozlar və xarici balansın yaxşılaşması nəzərə alınmaqla qəbul edilmişdir. Bu müsbət meyillərinin davam etməsindən asılı olaraq Mərkəzi Bank faiz dərəcələrinin real səviyyəsini pozitiv zonada saxlamaqla bundan sonra da azaldılmasını mümkün hesab edir. Qiymətləndirmələrə əsasən, yeni iqtisadi tsiklə adekvat olaraq neytral pul siyasətinə tədrici keçid iqtisadi aktivliyə müsbət təsir edəcəkdir.

Faiz dəhlizinin parametrlərinin dəyişdirilməsi haqqında qərarı qəbul edərkən Mərkəzi Bankın İdarə Heyəti xarici və daxili mühitdə baş verən bir sıra prosesləri nəzərə almışdır:

**Xarici mühit.** 2014-cü ilin sonundan bəri həyata keçirilən dərin makroiqtisadi manevr və iqtisadiyyatın şaxələndirilməsi istiqamətində aparılan islahatlar, eləcə də dünya bazarında neftin qiymətinin yüksəlməsi Azərbaycanın tədiyə balansının yaxşılaşmasını təmin etmişdir. 2017-ci ilin yekunu üzrə tədiyə balansının cari əməliyyatlar hesabında ÜDM-in 5%-i qədər profisit gözlənilir. Xarici ticarət balansının profisiti 5 mlrd. ABŞ dolları təşkil etmişdir ki, bu da ötən illə müqayisədə (0,5 mlrd. ABŞ dolları) 10 dəfə çoxdur. İxrac 52%, o cümlədən qeyri-neft ixracı 23% artmışdır. Ticarət balansı ilə yanaşı, xidmətlər, eləcə də ilkin və təkrar gəlirlər balansında da yaxşılaşma müşahidə olunmuşdur. Xidmətlər balansının kəsiri əhəmiyyətli azalmış, turizm xidmətləri üzrə müsbət saldo əldə olunmuşdur. Kapital və maliyyənin hərəkəti hesabında da müsbət saldo olmuşdur.

Ölkənin tədiyə balansının yaxşılaşması şəraitində 2017-ci ildə strateji valyuta ehtiyatları 11%-dən çox artmışdır.

Proqnozlara görə, xarici mühitdə pozitiv meyillərin 2018-ci ildə də davam edəcəyi gözlənilir.

**Valyuta bazarı.** Tədiyə balansının yaxşılaşması ilə ölkənin valyuta daxilolmalarının artması valyuta bazarında vəziyyəti sabitləşdirmişdir. Bu şəraitdə həyata keçirilən makroiqtisadi siyasət tədbirləri nəticəsində manatın ABŞ dollarına qarşı məzənnəsi 4% möhkəmlənmişdir. 2017-ci ilin ikinci rübündən manatın məzənnəsi əlavə möhkəmlənmə təzyiqləri altında olmuşdur.

Manatın məzənnəsinin sabitləşməsi de-dollarlaşma proseslərinə, maliyyə sabitliyinə və inflyasiya gözləntilərinin azaldılmasına müsbət təsir etmişdir.

Manatın real effektiv məzənnəsi isə 2014-cü ilin sonundan bəri 36% ucuzlaşmışdır. Bu da idxalın əvəzlənməsi və qeyri-neft ixracının stimullaşdırılmasına müsbət təsir edən amildir.

**Monetar şərait.** 2017-ci ildə pul siyasətinin əsas əməliyyat hədəfi olan manatla pul bazası 8,7% artmışdır. Valyuta bazarında təklifin tələbi üstələməsi şəraitində fiskal sektorun likvidliyə olan tələbi monetar şəraitə təsir göstərən əsas amil olaraq qalmaqdadır.

İqtisadiyyatın pula olan tələbinin təmin edilməsi və likvidliyin effektiv idarə olunması məqsədilə Mərkəzi Bank müxtəlif müddətli (7 günədək, 14 günlük, 28 günlük və s.) çərçivə və açıq bazar əməliyyatlarını aktiv saxlayır. İqtisadiyyatda kredit aktivliyinin bərpa olunmaması şəraitində bank sistemində akkumulyasiya olunan izafi likvidlik Mərkəzi Bankın sterilizasiya alətlərinə yüksək tələbi şərtləndirir. Ümumilikdə, təhlillər göstərir ki, yaradılmış monetar şərait istehlakla yığımın optimal balansının təmin edilməsinə müsbət təsir etmişdir.



**İnflyasiya prosesləri.** Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar ayında orta illik inflyasiya 5,5% təşkil etmişdir. Antiinflyasiya xarakterli pul siyasəti, pul kütləsinin optimal səviyyədə idarə olunması və 2017-ci ilin ortalarından etibarən manatın məzənnəsinin sabitləşməsi inflyasiyanın təkrəqəmli səviyyədə formalaşmasında mühüm rol oynamışdır.

Məcmu tələblə təklifin nisbətinin dəyişimi, dünya ərzaq qiymətləri və inflyasiya gözləntiləri də qiymətlərin dinamikasına təsir edən başlıca amillərdən olmuşdur.

Qiymətləndirmələrə görə, dezinflyasiya meyilləri bundan sonra da davam edəcək və 2018-ci ilin sonuna illik inflyasiyanın elan edilmiş hədəf çərçivəsində olması potensialı əhəmiyyətlidir. Mərkəzi Bank tərəfindən ev təsərrüfatları və biznes sektorunda aparılmış sorğular göstərir ki, məzənnənin sabitləşməsi və faktiki inflyasiyanın azalma dinamikası inflyasiya gözləntilərinə azaldıcı təsir etmişdir. İnflyasiyanın qarşıdakı dövrdə birrəqəmli səviyyədə qalması inflyasiya gözləntilərin azalması və bu gözləntilərin iqtisadi konyunktur dəyişimələrə qarşı həssaslığının aşağı düşməsindən də asılı olacaqdır.

**İqtisadi aktivlik.** 2017-ci ildə makroiqtisadi sabitliyin güclənməsi iqtisadi aktivliyin canlanmasına müsbət təsir etmişdir. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2017-ci ildə qeyri-neft sektorunda 2,7%-lik iqtisadi artım baş vermişdir. O cümlədən, qeyri-neft sənayesində 3,7%, kənd təsərrüfatında 4,2% iqtisadi artım olmuşdur.

İqtisadi artım dövlətin investisiya xərclərinin və qeyri-neft ixracının artması, habelə istehlakçı inamının yüksəlməsi ilə dəstəklənmişdir. 2018-ci ildə də iqtisadi artım üzrə pozitiv dinamikanın qorunacağı gözlənilir.

# Azərbaycan elektrik enerjisi sahəsində qonşu dövlətlərlə səmərəli əməkdaşlıq edir



“Azərbaycan bir neçə istiqamətdə, o cümlədən elektrik enerjisi sahəsində Rusiya, İran, Gürcüstan və Türkiyə ilə səmərəli əməkdaşlıq edir”. Bu sözləri AZƏRTAC-a müsahibəsində “Azərenerji” ASC yanında “Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutu” MMC-nin Hidrolayihə İdarəsinin baş mühəndisi Cəlaləddin Vəliyev deyib.

Baş mühəndisin sözlərinə görə, bu məsələ Tbilisidə keçirilən “Hidroenergetika: Xəzər dənizi və Mərkəzi Asiya ölkələri - 2018” adlı beynəlxalq konfransda xüsusi qeyd olunub.

Rusiya, Gürcüstan, İran və Türkiyədən olan mütəxəssislər Azərbaycan ilə enerji sahəsində əməkdaşlıqdan məmnunluq ifadə ediblər. Konfransda iştirak edən digər xarici ölkələrin nümayəndələri də bu əməkdaşlığı xüsusi qeyd ediblər. Bildirilib ki, bu əməkdaşlıq regionun sosial-iqtisadi inkişafı ilə yanaşı bölgədə sülhə və təhlükəsizliyə xidmət edir.

# Məşğul əhalinin 75 faizi özəl sektorda işləyir

Azərbaycanda məşğul əhalinin 75 faizi özəl sektorda işləyir.

Bu barədə fevralın 14-də Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev "Regionların inkişafında sahibkarlığın rolu" mövzusunda keçirilən konfransda deyib.



O bildirib ki, dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, biznes mühitinə dair qanunvericiliyin və inzibati prosedurların təkmilləşdirilməsi, sahibkarların maarifləndirilməsi və onların işgüzar əlaqələrinin inkişafı istiqamətində davam etdirilən tədbirlər nəticəsində ölkə iqtisadiyyatında özəl sektorun payı 83 faiz təşkil edir. Məşğul əhalinin isə 75 faizi bu sektorda cəmləşib.

# 14 ildə Azərbaycanda bank aktivlərinin ümumi həcmi 27 dəfəyə yaxın artıb

Bu barədə fevralın 14-də Azərbaycan Banklar Assosiasiyasının sədri Zakir Nuriyev "Regionların inkişafında sahibkarlığın rolu" mövzusunda keçirilən konfransda deyib.

O bildirib ki, hesabat dövründə kredit portfelinin həcmi 19 dəfə, bank sektorunun depozit bazası 28 dəfə, əhalinin əmanətləri isə 30 dəfəyə yaxın artıb. Ümumilikdə kapitalın həcmində 20 dəfəyə yaxın artım müşahidə olunub".

Z.Nuriyev qeyd edib ki, 188 milyon manatdan başlayan balans kapitalının həcmi bu gün 3,7 milyard manata çatıb.

# Dünyada ilk dəfə olaraq onlayn vahid ixrac ərizəsi yaradılıb

Bununla bağlı fevralın 14-də İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində keçirilən təqdimat mərasimində "Azexport" portalının meneceri Zaur Qardaşov məlumat verib. Bildirilib ki, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi yeni xidməti Rəqəmsal Ticarət Qovşağı və "Azexport" portalı vasitəsilə həyata keçirəcək. Sahibkarlar vahid ixrac ərizəsini onlayn qaydada doldurmaqla məhsullarını daha asan ixrac edə biləcəklər.

Z.Qardaşov deyib ki, yeni elektron xidmət sahibkarların ixrac etdikləri məhsulları onlayn vahid ərizə əsasında müraciət etməklə ixrac üçün tələb olunan bütün icazə sənədlərinin əldə edilməsini, o cümlədən elektron gömrük bəyannaməsinin doldurulması və ixrac təşviqi məbləğinin alınmasını özündə birləşdirir. Vahid ixrac ərizəsinin doldurulması sistemi intellektual məntiqə əsaslanaraq qurulub. Yəni, istifadəçi özü haqqında minimal məlumatları daxil edir. Sahibkar bu məlumatları yalnız bir dəfə daxil etməklə (məsələn: malın adı və ixrac ölkəsi) digər zəruri məlumatlar, o cümlədən idxal ölkəsi üçün tələb olunan sənədlər sistem tərəfindən avtomatik müəyyənləşdirilir və ərizəçiyə təqdim edilir. Sonrakı mərhələdə ərizəçinin razılığı əsasında elektron vahid ixrac ərizəsi formalaşır və tələb olunan icazələrin alınması üçün sistem tərəfindən müəyyənləşdirilmiş iştirakçılara (dövlət qurumlarına) ünvanlanır.

"Yeni sistemin işə salınması ixrac prosedurlarının icrasında məmur-sahibkar təmasını minimuma endirəcək, sənədlərin icra müddətini bir neçə dəfə azaldacaq, bölgələrdəki sahibkarlar üçün icazələrin alınması proseduru daha rahat olacaq.

Vahid ərizə konsepsiyası əsasında bütün ixrac icazələrinin əldə edilməsi xidməti hazırda dünyanın heç bir ölkəsində təqdim edilmir", - deyə Z.Qardaşov diqqətə çatdırıb.

Qeyd edək ki, ixracda tələb olunan icazələrin, ixrac gömrük bəyannaməsinin və ixrac təşviqinin vahid elektron ərizə əsasında verilməsi Prezident İlham Əliyevin "Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanında nəzərdə tutulub.

KİVDF
Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
www.kivdf.gov.az

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən “Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi” layihəsi çərçivəsində çap olunub.**

# “AquaVita” 20 il bizimlə...




İnsan sağlamlığında mühüm rolu olan maddələrdən biri və ən əsası sudur. Orqanizmin normal işləməsini təmin edən su təmiz və içməli olmalıdır. Gündəlik istifadə etdiyimiz suyun fərqinə varmadan düşünürük ki, içməlidir. Lakin bu, həqiqətən, belədirmi?

Heç kimə sirr deyil ki, içməli su ehtiyatları bir gün tükənə bilər. Hətta mütəxəssislərin fikrincə, dünya benzinsiz qalmamışdan əvvəl içməli susuz qalacaq. Suyu israfçılıqla işlətmək olmaz. Onu qorumaq, qənaətlə, təyinatı ilə işlətmək lazımdır.

**Təklif və tələb bir-birinə uyğundurmu? Və ya biz nə içirik?**

Alimlər sübut etmişlər ki, təmiz, keyfiyyətli içməli su insan orqanizminin normal həyat fəaliyyəti üçün əvəzolunmayan maddədir. Dünya Səhiyyə Təşkilatının məlumatlarına görə, dünyada bütün ölümlərin yarısının səbəbi ürək-damar xəstəlikləridir. Bu riskdən yan keçmək üçün insan öz orqanizmində zəruri olan suyun miqdarını və keyfiyyətini bərpa etməlidir. Yalnız fizioloji mükəmməl, kimyəvi tərkibinə və fiziki parametrlərinə görə balanslaşdırılmış içməli su toxumalarda və hüceyrələrdə gedən adi mübadilə proseslərini normallaşdırmaq və gücləndirmək qabiliyyətinə malikdir. İnsanlar bunu indi anlamağa və sağlamlıqlarının qayğısına qalaraq, içməli sudan daha çox istifadə etməyə başlamışlar. Sağlam həyat tərzi düzgün, qatqısız, süni əlavələrdən uzaq olan qidalanma, gündəlik aktivlik və qazsız içməli su istehlakına əsaslanır.

Hazırda daxili bazarda müxtəlif şirkətlər fərqli çeşidlərdə öz məhsullarını təqdim edir. Bu rəngarənglik bizi seçim qarşısında qoyur. Hansı məhsulu alaq, hansından istifadə edək?

Bu gün praktiki olaraq bəşəriyyətin istifadə etdiyi su ya texnogen təsirin nəticəsində korlanmışdır, ya da təmizlənərək distillə suyu vəziyyətinə gətirilmiş və xlorla (xlor da mahiyyət etibarilə zəhərli maddəyə bərabərdir) zərərsizləşdirilmişdir. Bu suyu içməklə və ya yemək hazırlayarkən istifadə etməklə, biz faktiki olaraq öz daxilli orqanlarımızı parçalayırıq. Həyat tonusu itir, immunitet zəifləyir, virus xəstəliklərinə meyillilik artır, hər şeyə qarşı allergik reaksiyalar çoxalır. Bir sözlə, su insan orqanizmində bir çox xəstəliklərə və pozuntulara qarşı ən zərərsiz və güclü təbii profilaktik vasitədir. Bəs, hazırda yerli bazarda çoxlu sayda təkliflərin olduğu halda, hansı sudan istifadə edək? Hansı su daha təmiz, keyfiyyətli və faydalıdır?

Su təklif edən bəzi şirkətlər öz istehsallarında “əks osmos” təmizləmə sistemindən istifadə edir, bununla da son nəticədə distillə edilmiş su buraxmış olurlar. Əks osmos haqqında danışarkən demək olar ki, bu, suyun təmizlənməsi prosesidir ki, bundan sonra o, praktiki olaraq distillə edilmiş suya çevrilir. Nəticədə, bütün mineral maddələrdən azad edilmiş su alınır. Düzdür, bu su da içmək üçün yararlıdır. Amma tərkibində olan faydalı mineral maddələr artıq yoxdur. Bir sözlə, istehlakçıya “ölü su” təqdim edilir. Nəticə: istehlakçıların ağız dadı dəyişir, onlar distillə edilmiş suyu yüngül su kimi qəbul eidrlər.

Dünya Səhiyyə Təşkilatının ekspertləri istehlak üçün tərkibində heç olmazsa, mühüm mineralların minimal miqdarının və bəzi digər komponentlərin, məsələn, karbonatların olduğu suyu tövsiyə edirlər. Su sıfırlaşdıqdan sonra onun süni minerallaşdırılması üsulları da mövcuddur. Bu, artıq natural deyil, sintetik sudur.

Azərbaycanda istehsal olunan su və içki məhsullarının çoxlu sayda müxtəlif brendləri arasında birinci olan şirkət haqqında söz açmaq istərdik. Bu, hamının “AquaVita” zavodu kimi tanıdığı “TAC” MMC-dir. “AquaVita” yerli bazarda mineral suyun ən populyar və satılan növlərindən biridir.

**“AquaVita”– təbii su**

Bazarda xüsusi yeri olan “AquaVita” bu gün süfrələrimizin bəzəyi olmaqla bərabər, həm də sağlamlığımızın qorunmasıdır. Hər kəsin tanıdığı və istifadə etdiyi bu suyun çıxarıldığı mənbədən ta istehlakçıya qədər keçdiyi yol çox mürəkkəb və böyük zəhmət tələb edəndir.

“AquaVita” təbii suyu öz faydalı xassələrini Qafqaz dağlarının ürəyindən götürür. Onun vətəni dağların ətəyidir. Evi Qafqazdır, məhz burada o, mineral duzlarla zənginləşir. Bu suyun hər bir qurtumu Qafqaz dağlarının uca zirvələrinə səyahətdir. Dadı isə nə vaxtsa orada olub bu suyu dadanlara bir xatırlatma, ora getmək istəyənlərə bir dəvətdir. “AquaVita”nın təkrarsız dadı hər nahar və şam süfrəmizə mükəmməllik bəxş edir.

“AquaVita” Bakıdan 200 km məsafədə, Xaçmaz rayonunun Susayqışlaq kəndinin meşə massivində yerləşən artezian quyusundan 420 metr dərinlikdən çıxır. Quyu ətraf mühitin bioloji və kimyəvi çirklənməsindən möhkəm qorunur.

Su çıxarıldıqdan sonra tərkibində olan təbii mineralları saxlamaq üçün xüsusi avtosisternlərə doldurulur və zavoda gətirilir. Sonra suyüklənən stansiyaya düşür, suya nəzarətin çoxpilləli proseslərindən: analiz, filtrasiya və zərərsizləşdirilmədən keçir, xüsusi çənlərə tökülür, oradan dünya standartlarının qabaqcıl tələblərinə cavab verən qablar üzrə avtomatlaşdırılmış xətlərə düşür. İstehsal tsiklinin bütün texnoloji prosesləri avtomatik rejimdə keçir. Zavoda gətirilən su bütün mexaniki qarışıqlardan təmizlənir, ultrabənövşəyi şüalarla zərərsizləşdirilir və bütün sanitar-gigiyena norma və qaydalarına riayət edilməklə müxtəlif tutumlu butulkalara tökülür. Suyun ozonlaşdırılması və ozonla zənginləşdirilməsi (O3) suyun emalı və qablaşdırılması prosesindən asılı olaraq həyata keçirilir. Bu, suyu uzun müddət, tərkibi dəyişmədən və sağlamlıq üçün təhlükə yaratmadan saxlamağa imkan verir. Butulkanın həcmindən asılı olaraq, bu müddət 3 aydan 5 aya qədər olur. Zavodda yalnız 20 litrlik butulkalara tökülən su ozonlaşdırılır.

Şirkətin bütün məhsulları - həm içməli sular, həm də müxtəlif alkoqolsuz içkilər “Krones”, “Husky”, “Universal Aqua” və s. kimi qabaqcıl beynəlxalq istehlakçıların avadanlıqlarında hazırlanır.

Suyun kimyəvi, mikrobioloji və orqanoleptik nəzarəti istehsalın bütün mərhələlərində həyata keçirilir. Bu vəzifələrin yerinə yetirilməsi kimya və mikrobiologiya laboratoriyalarının, həmçinin texnoloji xidmətin üzərinə düşür. Onu da qeyd etmək lazımdır ki, “TAC” şirkətinin laboratoriyaları Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən akkreditasiyadan keçmişdir və şirkət yerli bazarda təqdim olunan istənilən növ məhsulun analizini keçirməyə imkan verən xüsusi sertifikatlar almışdır.

Ana təbiətdən qaynaqlanan “AquaVita” mineral maddələrlə zəngin və yüngül dadı olan ideal balanslaşdırılmış sudur. Unikal tərkibinə, mineral duzların və mikroelementlərin zənginliyinə görə “AquaVita” insan orqanizminə zəruri olan maddələri almağa və həmişə tonusda qalmağa imkan verir. Mineral maddələrin unikal balansı və yüngül dadı “AquaVita”nı digər brendlərdən nəinki yerli, habelə dünya bazarında da fərqləndirir.

**20 il bizimlə...**

“TAC” şirkəti 20 il əvvəl yaradılmışdır. 20 ildən artıqdır ki, şirkət qabaqcıl texnologiyalar və müasir avadanlıqlar sayəsində böyük rəqabətə sinə gərərək, bazarda qala bilmişdir. Yüksək keyfiyyətli xammaldan, qabaqcıl texnika və mütərəqqi texnologiyadan istifadə, həmçinin suyun hazırlanması problemləri ilə məşğul olan yüksəkixtisaslı mütəxəssislərin Rusiyadan, Almaniyadan, Fransadan, Türkiyədən cəlb edilməsi şirkətin məhsullarının yüksək qida dəyərini və gözəl dad keyfiyyətlərini təmin edir. “TAC” Azərbaycanda yeganə şirkətdir ki, ətraf mühitə neqativ tullantıları azaltmaq üçün yeni kiçildilmiş boğaz standartına keçmişdir. Belə ki, bir çox ölkələrdə olduğu kimi, Azərbaycanda da polietilen butulkaların utilizasiya edilməməsi hamıya məlumdur. Hazırda şirkətdə su ilə doldurulan qablar polietilentereftalatdan hazırlanır. Bu qablarda suyu təhlükəsiz saxlamaq olur.

“TAC” Azərbaycanda suyun üfürülməsinin və qablara tökülməsinin blok sistemindən istifadə edən ilk şirkətdir. Proses vahid germetik blokda baş verir, bura texniki hava daxil olmur. Müvafiq olaraq, qablara hər hansı mikrobların düşməsi imkanı da yolverilməzdir. Təkrar olaraq yalnız dispenserlər üçün nəzərdə tutulan 20 litrlik butulkalardan istifadə edilir. Lakin onlar da müasir Amerika avadanlıqlarında dəqiq dezinfeksiyadan keçirilir. Şirkətdə keyfiyyətə nəzarət sistemi istehlakçılar tərəfindən faydalı suyun alınmasına zəmanət verir.

Şirkətin bütün məhsulları xüsusi olaraq fransız texnologiyalarına uyğun tikilmiş və günəş şüalarının 100% qarşısının alınmasını təmin edən anbarda saxlanılır.

**“AquaVita” həyat suyudur**

Hazırda yaranmış mürəkkəb ekoloji şəraitdə istehlakçıların natural su və ekoloji təhlükəsiz içkilərlə təmin edilməsi şirkətin əsas vəzifəsidir. “AquaVita” gündəlik istifadə üçün nəzərdə tutulmuş sudur. Su distillə mərhələsindən keçmir, bununla da bütün mineral maddələr kompleksi dəyişmədən, natural formada qalır.

Şirkət Azərbaycanda əhalini keyfiyyətli içməli su ilə təchiz etmək üçün yaradılmış ilk şirkətdir. 20 il ərzində şirkət “Suyun keyfiyyəti həyatın keyfiyyətidir!” şüarına sadiq qalmışdır. Onların qazandıqları uğurun və yerli bazarda nüfuzunun səbəbi də məhz budur. Beynəlxalq İSO 9001:2008, İSO 22000:2015 sertifikatları, həmçinin NASSR nüfuzlu sertifikatı nəinki yüksək keyfiyyət, həm də şirkətin buraxdığı məhsulun təhlükəsizliyinə dəlalət edir.

“AquaVita” ticarət markası “həyat suyu” deməkdir və öz adına tam uyğundur!

Bütün bunlar heç də təsadüfi deyil. Çünki Fuad Mehdiyev nəinki bu şirkətin rəhbəri, həm də sütunudur, dayağıdır. 20 il bir şirkəti ayaq üstə saxlamaq, inkişaf etdirmək, məhsulu alıcıya sevdirmək hər adamın işi deyil.

Məhz onun səyi, zəhməti, yorulmadan çalışmağı sayəsində “AquaVita” bu gün bizim süfrələrimizi bəzəyir, hər bir istehlakçının evinə yol tapır.

**Bir inci saflığı varsa da suda...**

Bəli, dahi Nizami Gəncəvinin təbirincə, suda bir inci saflığı var. Su batil, pak edəndir. Təsadüfi deyil ki, islam dinində namazdan əvvəl dəstəmazı su ilə alırlar. Su saflıqdır. Su aydınlıqdır. Su təmizlikdir. Su həyat qaynağıdır, həyat çeşməsidir. Su torpağa can verir, onun üzərində nə varsa, yaşadır. Heç bir canlı susuz yaşaya bilməz. Çünki su həyatdır...

Xalq arasında belə bir deyim də var: “Su qədər ömrün olsun”. İnsanlar bir-birinə uzun ömür arzulayanda belə deyirlər. Həm də suyun saflığı, təmizliyi, aydınlığı kimi ömür arzulayırlar. Biz də şirkətə “Su qədər ömrün olsun”, - deyir, gələcək fəaliyyətində uğurlar diləyirik.

**Nailə CABBAROVA**

# QHT-nin layihəsi uğurla tamamlanmışdır



Ölkəmizdə vətəndaş cəmiyyətinin aktual mövzularda icra etdiyi layihələr ümumi inkişafımıza, vətəndaş cəmiyyətinin formalaşmaına öz töhfəsini verir. QHT sektorunun cəmiyyətdə maarifçilik və təbliğat xarakterli layihələri vətəndaşların, xüsusən də gənclərin fəal həyat mövqeyi tutmasına dəstək verir, onları ölkənin sosial-iqtisadi sahələrdəki nailiyyətləri ilə tanış edir. QHT sektorunun təhsil müəssisələrində tez-tez təşkil etdiyi tədbirlər tələbələrin və pedaqoji kollektivin marağına səbəb olur.

Azərbaycan Respublikasının Prezidenti yanında "Gənclər Fondu"-nun Qrantı hesabına "Gənclik və maarifçilik" ictimai birliyinin "Gənclərin İT yönümlü peşələrə istiqamətləndirilməsi" layihəsi uğurla başa çatmışdır. Layihə çərçivəsində təhsil müəssisələrində peşəyönümünə həsr edilmiş bir sıra maraqlı tədbirlər həyata keçirilmişdir. Tədbirlərdə məruzə edən layihə meneceri, təhsil eksperti, ADPU-nun dosenti İlham Əhmədov peşəyönümü işinin çoxsahəli və mürəkkəb bir proses olduğunu müəllim və şagirdlərin nəzərinə çatdırmışdır. Bu gün dünyada rəqəmsal iqtisadiyyatın sürətli inkişafı, ölkəmizdə qeyri-neft sektorunun perspektiv inkişafı peşəyönümü işində İKT yönümlü peşələrə xüsusi önəm verilməsini tələb edir.

Sürətlə dəyişən texnoloji inkişaf nəticəsində transformasiya edən əmək bazarının proqnozlaşdırılması getdikcə çətinləşir, bu da peşəyönümü işinin layihələnməsi işini çətinləşdirir. Burada yalnız kompleks yanaşma nəticəsində müəyyən nailiyyətlər qazanmaq mümkündür.

Təəssüf ki, son 20 ildə ölkəmizdə peşəyönümü üzrə işlər xeyli zəifləyib.

Peşəyönümü gənclərə peşə seçimində köməklik edir və bu işdə onlara düzgün yol göstərir. Bu zaman onların maraq, meyil, qabiliyyətləri, əmək bazarında olan mövcud tələbat nəzərə alınmalıdır. Düzgün peşə seçimində hər kəs öz yerini və imkanlarını dəqiq bilməlidir.

# "Excelsior Hotel & Spa Baku" oteli ilin otel və SPA kompleksi seçilib



"Excelsior Hotel & Spa Baku" oteli "Business Time" jurnalı tərəfindən ilin otel və SPA nominasiyası üzrə "Azeri Business Award 2017" milli mükafatına layiq görülüb. Mükafat 10 fevral 2018-ci il tarixində "Azeri Business Award" mükafatının təqdimetmə mərasimində "Excelsior Hotel & Spa Baku" otelinin baş meneceri Turhan Poyraza təqdim edilib.

Təqdimetmə mərasimində otelin baş meneceri Turhan Poyraz "Business Time" jurnalının rəhbərliyinə oteli bu mükafata layiq gördükləri üçün təşəkkür edib. Turhan Poyraz bildirib ki, Azərbaycanda turizmin inkişafında "Excelsior Hotel & Spa Baku" otelinin xüsusi yeri var. Otel daim müştəri məmnuniyyətini üstün tutur və oteldə xaricdən gələn qonaqlara ən yüksək xidmət göstərilir.

"Excelsior Hotel & Spa Baku" oteli 2017-ci ildə sosial və biznes yonümlü tədbirlərin keçirilməsində fəal olmuşdur. Otelinin təşkilatçılığı ilə 2017-ci ildə "Baku Fashion 2017" tədbiri, "Yay tədbiri", turizm ixtisası üzrə təhsil alan tələbələr üçün müxtəlif mövzularda seminarlar və digər tədbirlər keçirilmişdir.

"Media Consulting & Services" şirkətinin apardığı monitorinqə görə, "Excelsior Hotel & Spa Baku" oteli Azərbaycanda fəaliyyət göstərən otellər arasında mətbuatda işıqlanan məlumatların sayına görə 2017-ci ilin yanvar, mart, aprel, may, iyun, iyul, avqust, oktyabr və noyabr aylarında birinci olmuşdur.

"Azeri Business Award" mükafatının təsisçisi Azərbaycanda 10 ildir uğurla fəaliyyət göstərən "Business Time" aylıq işgüzar jurnalıdır. Mükafat milli biznesin yeni simasını formalaşdıran, Azərbaycan bazarının ən parlaq və dinamik iştirakçılarına təqdim edilir. Qaliblərin müəyyən edilməsində əsas amil kimi namizədlərin fəaliyyətindəki artım tempi götürülür.

# "Azərpoçt"un plastik kartları ilə edilən onlayn alış-veriş daha ucuz başa gələcək




"Azərpoçt" MMC ilk dəfə "Debit MasterCard" ödəniş kartlarının emissiyasına başlayıb. İlk mərhələdə 20 min kartın personallaşdırılması nəzərdə tutulub. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən AZƏRTAC-a bildirilib ki, "Debit MasterCard" debit məhsulu olaraq, "MasterCard" Beynəlxalq Ödəniş Sistemi tərəfindən yaradılıb. Sistemin əsas üstünlüyü "Debit MasterCard"ın POS-terminallarda əməliyyatların həyata keçirilməsində, elektron ticarət zamanı əməliyyatların icrasına imkan yaratmasıdır. Bu kartların texniki üstünlüyü isə kontaktsız əməliyyatları dəstəkləməsidir. Bu tip kartlarla həyata keçirilən əməliyyatlar zamanı müştərilərin kart hesabına tətbiq olunan rüsumlar digər kart tiplərinə nisbətən daha ucuzdur.

Hər bir fiziki şəxs "Debit MasterCard" tipli ödəniş kartını əldə etmək üçün şəxsiyyətini təsdiq edən sənədlərlə "Azərpoçt" MMC-nin müştəri xidmətləri şöbələrinə müraciət edə bilər. Kartı əldə edən istənilən korporativ və fərdi müştəri üçün rüsumlar 1 illik 10 AZN, 2 illik 18 AZN, 3 illik 24 AZN təşkil edir. "Azərpoçt" MMC ilə əməkhaqqı layihəsində iştirak edən müəssisələrin əməkdaşları üçün rüsumlar 1 illik 8 AZN, 2 illik 15 AZN, 3 illik 21 AZN-dir.

# "The Washington Times" qəzetində Azərbaycanın turizm imkanları barədə məqalə dərc edilib

Azərbaycana üz tutan turistlərə bu ölkəyə gəlmək üçün əvvəlcə viza almaq lazım olduğu xatırladılır. Bildirilir ki, 2017-ci il Azərbaycanın əsas gəliş-gediş məntəqəsi, ölkənin ən iri hava limanı olan Heydər Əliyev Beynəlxalq Aeroportu üçün rekord ili olub: keçən il bu aeroport 4 milyon sərnişinə xidmət edib. Bu, əvvəlki ilin müvafiq göstəricisi ilə müqayisədə 23 faiz çoxdur. Məqalədə qeyd edilir ki, 2014-cü ildən etibarən Azərbaycana gələn ABŞ vətəndaşları üçün xüsusi rahat xidmətlər təqdim edilir: Nyu-Yorkdakı Con Kennedi adına aeroportdan (JFK) birbaşa reyslə Heydər Əliyev Aeroportuna uçanlar Bakıya çatandan sonra birdəfəlik qısamüddətli viza ala bilərlər. Heydər Əliyev Aeroportundan Mərkəzi Dəmiryol vağzalına aeroportun 48 sərnişin tutan rahat avtobuslarında da getmək mümkündür. Azərbaycanda rahat taksi xidmətlərindən də istifadə etmək olar. Göstərilir ki, Azərbaycan daxilində səyahət etmək üçün avtomobilləri kirayə götürmək də mümkündür. Ölkədə avtomobil kirayəsi xidmətləri təklif edən beynəlxalq şirkətlər, o cümlədən "Avis" və "Hertz", habelə çoxsaylı yerli şirkətlər fəaliyyət göstərir.

Ölkə daxilində uçuşlar üçün Azərbaycanın ən iri aviaşirkəti olan "Azərbaycan Hava Yolları" (AZAL) QSC-nin xidmətlərindən istifadə etmək olar. Bu yaxınlarda AZAL yeni daxili reyslər açıldığını elan edib. Məqalədə Azərbaycanın digər gözəl şəhərlərinə və mənzərəli guşələrinə, o cümlədən Gəncə, Qəbələ və Şəkiyə getmək də məsləhət görülür. Azərbaycanda avtobusla səyahətə çıxmaq geniş yayılıb. İri şəhərlərin, demək olar ki, hər birində avtovağzal və ya şəhərlərarası avtobusların dayanacaqları var.

Bundan əlavə, ölkə daxilində səyahət üçün münasib qiymətlə dəmiryol xidmətlərindən də istifadə etmək olar.

# Reklam elanlarının bədii tərtibatı

**(əvvəli ötən sayımızda)**

Sarı rəng əqli fəaliyyəti stimulaşdırır. Narıncı rəng nəbzi sürətləndirir, eləcə də istilik hissi yaradır.

Rəng qammasının bu xüsusiyyətlərini reklamın hazırlanması zamanı nəzərə almaq lazımdır.

Qeyd edildiyi kimi, rəng, həmçinin reklamın ən başlıca elementlərindən biridir. Bu, onunla izah olunur ki, rənglər insanların hissiyatına böyük təsir göstərir, reklam vasitələrinə diqqətin cəlb edilməsinə səbəb olur, reklam olunan əmtəələri realist baxımdan təsvir etməyə imkan verir, real əmtəə assosiasiyasını doğurur və onun dərk edilməsini asanlaşdırır, yaddaşda uzun müddət qalan reklamda rəmzlərin əmələ gəlməsinə kömək edir.

Təsviredici və izahedici amil kimi, rəng əmtəəni illüstrativ olaraq təsvir edən reklam vasitələri (çap reklamı, vitrinlər, kino, televiziya və s.) üçün çox əhəmiyyətlidir.

Əmtəəni onun rəng təsviri sayəsində daha cəlbedici təsəvvür etmək imkanı rəngli reklamın təsvirinin başlıca xüsusiyyətlərindən biridir.

Lakin rənglərin uzlaşdırılması elə seçilməlidir ki, xüsusilə, rəngli kataloqlarda, qablaşmada, plakatlarda və s. olan mətnlərin oxunması çətinlik doğurmasın.

Reklam vasitələrində əmtəənin real rəngli təsviri mağazada bu əmtəənin olmasını, deməli, onun satışını da asanlaşdırır.

Məlumdur ki, müxtəlif boyalarla rənglənmiş eyni şəkil müxtəlif cür oxunur. Müxtəlif boyaların (predmetin özünün, yaxud fonun) köməyilə elə təsəvvür yaratmaq olar ki, predmet yaxın və ya uzaqdır, ağır və ya yüngüldür, kiçik və ya böyükdür.

Məsələn, qırmızı və narıncı rəng qaynar rənglər adlanır, çəhrayı (qızıl gül) çalarlı rənglər istilik rəngləri, mavi və yaşıl rənglər soyuq rənglər adlandırılır, sarı və sarı-qəhvəyi (xurmayı) rənglər quruluq haqqında təsəvvürlərlə əlaqələndirilir. Bu və ya digər əmtəə qrupları haqqında təsəvvürlərlə bəzi rənglərin və ya onların uzlaşmalarının əlaqəsi də məlumdur. Belə ki, ağla mavinin uzlaşması süd məhsulları ilə, qırmızı ilə sarının uzlaşması ət məhsulları ilə, qəhvəyi ilə sarının uzlaşması qənnadı məmulatları ilə assosiasiya olunur.

Qırmızı ilə yaşılın, narıncı ilə göyün, sarı ilə bənövşəyi rənglərin təzadlı uzlaşmasında yerinə yetirilən kombinasiyalar öz-özlüyündə kəskin, yaxud parlaqdır və iri şrift yazıları ilə uzlaşmada istifadə olunmur. Rənglərinə görə aşağıdakı təzad uzlaşmaları daha dəqiq qəbul olunur: qara-sarı fonda, yaşıl-ağ fonda, qırmızı-ağ fonda, qara-ağ fonda, sarı-qara fonda.

Digər xüsusiyyətlər də mövcuddur. Bir-birilə yanaşı yerləşən iki təzadlı rəng bir-birini qarşılıqlı surətdə gücləndirir, qohum tonlar bir-birini zəiflədir. Müəyyən edilmişdir ki, rənglərin bəzi uzlaşması zənginliyi gücləndirir; məsələn, qırmızı rənglə yanaşı, yaşıl rəng parlaq yaşıl kimi, narıncı-sarı rənglə göy rəng daha dərin görünür. Əgər havada asılı olan və ya relyef predmeti xəyalı yaratmaq lazımdırsa, onda tonallıq, fon üçün isə soyuq tonallıq seçilir.

Reklamda rəngin seçilməsi ilə əlaqədar amerikalı mütəxəssis Ernest Biqz bir sıra faydalı məsləhətlər verir və qeyd edir ki, spektrin qırmızı kənarı spektrin mavi kənarı ilə müqayisədə daha aydındır, həmçinin qırmızı rəng həyəcan, həvəs doğurur, mavi rəng gözlərə xoş təsir göstərir. Biqzin tədqiqatlarında (21 min insanın sorğusu əsasında) rənglərin yayılmasında aşağıdakı ardıcıllıq müşahidə olunmuşdur: mavi, qırmızı, yaşıl, bənövşəyi, narıncı (sarı).

Hər hansı bir reklam vasitəsinin yaradılması üzərində rəssamın işi üçün bu və ya digər əmtəənin reklamının tərtib edilməsinin sabit təkrarlanan elementlərini bilməsi böyük əhəmiyyət kəsb edir.

Rəssam əmtəə haqqında zəruri məlumatları və yardımçı materialları əldə etdikdən sonra o, reklamın bədii tərtibatının, adətən, tətbiq olunan elementlərini (konstantlarını) sifarişçiyə izah edir. Konstantların sırasına aiddir: ticarət markası əmtəənin, təşkilatın və firmanın adı və onların yazılması (şrift və s.) xarakteri, həmin firmanın və ya təşkilatın əmtəələrinin reklamı zamanı istifadə olunan rənglər, çap məmulatlarının formatı və bu və ya digər firma və ya təşkilat üçün spesifik göstəricilər. Reklamın tərtib olunma konstantları keyfiyyət rəmzləri və istiqamətləridir, buna görə də onlar iki əsas tələbə görə kəskin və



parlaq olmalıdır: asanlıqla yadda qalmalı və əmtəə ilə əlaqədar assosiasiyalar doğurmalıdır. Yalnız tərtibatın sabit elementləri haqqında göstəricilər əldə edildikdən sonra rəssam sonrakı işə başlaya bilər.

Əmtəə haqqında məlumatların əldə edilməsinə nisbətən, reklamın sifariş olunan vasitəsi haqqında informasiya da rəssam üçün vacibdir.

Mətbuat üçün reklam elanının hazırlanması zamanı rəssam qəzet və ya jurnalın bir nüsxəsinə malik olmalıdır ki, bunun üçün o, bədii tərtibatı hazırlayır və müəyyən edir ki, hansı oxucu dairəsi üçün bu nəşr nəzərdə tutulmuşdur. Yalnız bu və ya digər çap orqanlarının tərtib xarakterini bilərək, rəssam reklam elanının uğurlu həllini təmin edə bilər. Qəzet və jurnal nümunəsinə malik olan rəssam elan formatını, qara rəngdən başqa digər rənglərdən istifadə edilməsi imkanını, çap nəşri növünü və orijinalın hazırlanması üçün lazım olan digər texniki göstəriciləri düzgün müəyyən edə bilər.

Reklam elanları ilə iş zamanı rəssam üçün şriftlərin düzgün seçilməsi böyük əhəmiyyət kəsb edir. Şrift istifadə edərək, reklam elanında əsas mənanı ayırmaq olar.

Reklamda şriftə böyük diqqət yetirilir. Şəkil və şrift, bir qayda olaraq, eyni üslubda yerinə yetirilir. Rəssam sətirin enini, aralığını, sətirin dolğunluğunu düzgün müəyyən etməlidir. Reklamda əlyazma şriftlərinə "məftun olmaq" lazım deyil. Şriftin işlənmiş və müxtəlif cür qarniturları rəssamın işini yungülləşdirir və reklamı bəzəyir.

**(davamı var)**

**F.M.Qarayev,**
**BDU-nun dosenti**

# "Bakcell"in LTE şəbəkəsi artıq Azərbaycanın şimal bölgəsində

Azərbaycanının İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell özünün 4G LTE şəbəkəsini ölkənin şimal bölgəsində də istifadəyə verib.

Bakı şəhəri və Abşeron yarımadası ilə yanaşı, ölkənin digər bölgələrində də yüksək sürətli LTE şəbəkəsinin təmin edilməsinə yönəlmiş kompleks tədbirlərin davamı olaraq, Bakcell şirkəti Azərbaycanın şimal bölgəsindəki bir neçə rayon mərkəzində yeni LTE stansiyaları quraşdırıb. "Bakcell"in 4G xidməti artıq Quba, Qusar (Şahdağ ərazisi daxil olmaqla), Xaçmaz, Siyəzən (Qalaaltı ərazisi daxil olmaqla) və Şabran rayonlarının mərkəz hissələrini əhatə edir. Beləliklə, Bakcell abunəçiləri həmin ərazilərdə ən yüksək sürətli mobil internet xidmətlərindən yararlanmaq imkanı əldə ediblər.

"Bizim əsas məqsədlərimizdən biri abunəçilərimizi yüksək sürətli mobil internet xidmətləri ilə təkcə paytaxtda yox, bütün ölkə ərazisində təmin etməkdir. Bildiyiniz kimi, 4G şəbəkəmizin Bakı və Abşeron yarımadasının ərazisini tam əhatə etməsi üzrə işlər başa çatdırıldıqdan sonra Gəncə şəhəri və ətrafında yerləşən ərazilərdə 4G stansiyalarının quraşdırılmasına başladıq və bununla respublikanın bölgələrində LTE şəbəkəmizin işə salınması prosesinə müvəffəqiyyətlə start verdik. Bu yaxınlarda, yəni 2018-ci ilin yanvar ayında Bakcell şirkəti böyük məmnuniyyətlə özünün ultra-sürətli 4G mobil internet xidmətinin Bakı şəhərinin bütün metro stansiyalarında istifadəyə verilməsini elan etdi.

Bu gün isə biz LTE şəbəkəsini artıq ölkənin şimal bölgəsində istifadəyə veririk. Bunun sayəsində daha çox Bakcell abunəçisi Azərbaycanda ən yüksək keyfiyyətli müştəri təcrübəsi və ən sürətli mobil şəbəkədən yararlana biləcəklər", - deyə "Bakcell"in baş icraçı direktoru Nikolai Beckers bildirib.

"Bakcell"in 4G xidməti daim mobil olmaq və olduqları bütün məkanlarda genişzolaqlı internetə yüksək sürətli çıxış əldə etmək istəyən istifadəçilər üçün nəzərdə tutulub.

Qeyd edək ki, 2017-ci ildə mobil rabitə şəbəkələrinin müqayisəli testləri (bençmarkinq) sahəsində beynəlxalq lider və ən etibarlı müstəqil təşkilat olan "P3 Communications" şirkəti tərəfindən Bakcell şəbəkəsi Azərbaycanda "Best in Test" (sınaq nəticələrinə görə ən yaxşı) adına layiq görülüb.

## ETİBARSIZDIR

"TAKE HEİGHT" MMC-nin 1001959371 saylı dövlət qeydiyyat nömrəsi (VÖEN) və 13.10.2010-cu il tarixli Nizamnaməsi itdiyi üçün etibarsız sayılır.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: 566 09 60**
**Faks: 514 14 27**
**Mühasibatlıq: 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500**